

“Gələcəyimizi özümüz qururuq”

Səhifə 5-də



Avropada geosiyasi təsirlərimiz artır

Səhifə 4-də



Hökumət hesabat verdi

Səhifə 2-də



Ballıcaya növbəti köç reallaşıb

Səhifə 2-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

15 MART ŞƏNBƏ 2025 № 10 (4211)

Qiyməti - 60 qəpik

www.kaspi.az






HƏR İL BAKIDA KEÇİRİLƏN QLOBAL FORUMA MARAQ İLDƏN-İLƏ ARTIR

# ÇAĞIRIŞLARIN FÜRSƏTƏ ÇEVRİLMƏSİ

Budəfəki Qlobal Foruma maraq böyükdür. Tədbirdə dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadim, o cümlədən azı 50 fəaliyyətdə olan və sabiq prezident, baş nazir, həmçinin BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlər iştirak edirlər.

**YENİ DÜNYA DÜZƏNİ MÜZAKİRƏ OLUNUR**

Bakı növbəti Qlobal Foruma ev sahibliyi edir. XII Qlobal Bakı Forumu “Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi” kimi çox aktual bir mövzuya həsr olunub. Forumda dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadim iştirak edir.

**ƏVVƏL USAID İDİSƏ, İNDİ BRÜSSEL**

Prezident İlham Əliyev bölgədə sülh danışıqlarına maneə yaradan təşkilatlar və mərkəzlər haqqında da Forum iştirakçılarını məlumatlandırıb. Onun sözlərinə görə, Donald Trampın qələbəsinə qədər Ermənistanın ağaları Dövlət Departamenti, USAID idisə, indi Brüsseldir.

SƏHİFƏ 3-DƏ

ÖLKƏNİ TANIMAQ ÜÇÜN GƏLDİ, KÜRƏKƏN OLDU

## BƏLƏDÇİLİKDƏN DOSTLUĞA, DOSTLUQDAN SEVGİYƏ



Kim inanar ki, sən Cənubi Koreyaya köçmək üçün dillərini öyrənirsən. Lakin həmin ölkənin vətəndaşı səni elə öz ölkəndə tapır. Üstəlik, ikiniz də bir-birinizin dilini bilmirsiniz. Amma necə olursa, çox gözəl anlaşırsınız. Bəlkə də qəlblər ta əzəldən bir-birinin parçası olduğunu hiss edib. Ona görə də hər ikisi bir-birini tapmaq üçün addım atıbmış. Azərbaycanlı Zeynəb Camalova və koreyalı Eo İnkyu kimi...

SƏHİFƏ 8-9-da



## “KÖHNƏ” VƏ “YENİ DÜNYA”NIN SAVAŞI

Donald Trampın ABŞ-də prezident kimi fəaliyyətə başlaması dünyaya sürprizlər yaşatmaqda davam edir. Vaşinqtonun Avropadan uzaqlaşmaq xətti götürdüyünü iddia edənlərin sayı da artmaqdadır.

SƏHİFƏ 6-da



## YENİ STRATEGİYA NƏLƏRİ DƏYİŞƏCƏK?

Yeni hədəflər könüllü əməletməyə şəraitin yaradılmasına imkan verəcək. Vergi kargüzarlığında ən yeni texnologiyaların, rəqəmsallaşmaların tətbiqi vergi münasibətlərində əlçatanlığı yüksək səviyyədə təmin edəcək.

SƏHİFƏ 14-də



## İSTİXANA SAHİBLƏRİ TƏŞVİŞDƏ

Azərbaycanda istixanaların sayı azalır. Buna səbəb artan xərclər və xarici bazarda rəqabətin yüksəlməsidir. Yerli sahibkarlar ənənəvi Rusiya bazarında Türkmənistan təhlükəsi ilə üzləşiblər.

SƏHİFƏ 12-də



## SON SÖZ YENƏ DƏ AZƏRBAYCANINDIR

Rəsmi Bakının danışıqların başa çatmasını elan etməsinin ardınca İrəvanın gizlədilməyən sevinc dolu reaksiyası ona dəlalət edir ki, Paşinyan hökuməti Azərbaycanla sülhün əldə edilməsinə tələsir.

SƏHİFƏ 7-də




## “XOCALI. SON TOY...” TƏQDİM OLUNDU

“Global Media Group”un və “Report”un ərsəyə gətirdiyi filmin ideyası 1992-ci ildə çəkilmiş fotodan yaranıb. Ekran işi Xocalıda yarımçıq qalan toyu, bundan sonra baş verən prosesləri özündə ehtiva edir.

SƏHİFƏ 10-da



## “CƏRİMƏLƏR ŞƏHƏRİ”NDƏN REPORTAJ

Sinqapur turistləri elə hava limanında heyrətləndirir. Qüsursuz təmizliyi ilə seçilən hava limanı şəhərin görməli attraksionlarından biridir. “Asiya İsveçrəsi” xaosdan, cinayətdən uzaq bir adadır.

SƏHİFƏ 15-də

## TİKİNTİSİ LƏNGİYƏN MƏDƏNİYYƏT SARAYI



Bərdə rayonundakı Mədəniyyət Sarayı yenidən tikilmək üçün sökülsə də, tikinti işləri yarımçıq qalıb. Sarayın kollektivi kiçik bir məkana sığınıb, rayon sakinləri isə yarımçıq qalmış tikintiyə nə vaxt başlanacağını gözləyirlər.

SƏHİFƏ 13-də

## İŞ SAATLARI NƏ VAXT DƏYİŞDİRİLƏCƏK?



Nəqliyyat sıxlığının azaldılması ilə bağlı iş saatlarının dəyişdirilməsi barədə qərardan iki aya yaxın vaxt keçməsinə baxmayaraq, bununla bağlı addımlar atılmayıb. Ekspertlər bu məsələnin xeyli vaxt aparacağı qənaətindədirlər.

SƏHİFƏ 11-də

## ON İDMANÇI, DOQQUZ MEDAL



Gənc sərbəst güləşçilərimiz Avropada rəqibsizdirlər. Onlar bu dəfə Tiranada keçirilən qitə birinciliyində rəqiblərinə göz açmağa imkan verməyiblər. Sərbəst güləş üzrə U-23 yığmamız bütün rəqiblərini üstələyərək, komanda hesabında Avropa çempionu olub.

SƏHİFƏ 16-da




## SOCAR-ın Kulevi terminalı planı

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Kulevi neft terminalının yük dövriyyəsini iki dəfə artıraraq illik 4 milyon tona çatdırmağı hədəfləyir. "Report"un Gürcüstan bürosunun məlumatına görə, terminalda sıxılmış qaz və neft-kimya məhsullarının emalının təşkili də nəzərdən keçirilir. Layihə çərçivəsində terminalın infrastrukturu təkmilləşdiriləcək, yük çeşidi genişləndiriləcək və regionun enerji tranziti imkanları gücləndiriləcək.

Terminal rəhbərliyi Qazaxıstan, Türkmənistan və Rusiyadan enerji daşıyıcılarının tranziti üçün Azərbaycan və Gürcüstanın dəmir yolu marşrutlarının potensialından istifadə etməyi planlaşdırır.

Hazırda Kulevi terminalının ümumi çən tutumu 407 min kubmetr təşkil edir. Mövcud altı estakada eyni anda 208 dəmir yolu çəninin boşaldılmasına imkan verir. Genişləndirmə layihəsi regionun enerji tranziti infrastrukturunu daha da gücləndirməyə hesablanıb.



## Ballıcaya növbəti köç reallaşıb

Xocalı rayonunun Ballıca kəndinə köçən ailələrə mənzillərin açarları təqdim olunub. "Report"un Qarabağ bürosunun məlumatına görə, Ballıcaya yeni köçən ailələrə mənzillərin açarlarının təqdim olunması mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin təmsilçiləri iştirak edib.

Qeyd edək ki, bu mərhələdə kəndə 24 ailə (98 nəfər), ümumilikdə isə 136 ailə (660 nəfər) köçürülüb.




# HÖKUMƏT HESABAT VERDİ

Baş nazir Əli Əsədov qeyd edib ki, qarşıdakı dövrdə tibbi xidmətlər zərfinin genişləndirilməsi nəzərdən keçirilir. Keçən il səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması məqsədilə əhalinin icbari tibbi sığortalanması və bir sıra dövlət proqramlarının icrası üzrə büdcədən bir milyard 368 milyon manat vəsait ayrılıb.

Milli Məclisin yaz sessiyası üzrə növbəti plenar iclası keçirilib. İclasda Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı təqdim olunub. Baş nazir Əli Əsədov deyib ki, bundan sonra da hökumətin əsas vəzifələrindən biri sosial və iqtisadi inkişafın paralel həyata keçirilməsidir.

### 38 ÖLKƏ İLƏ 201 SƏNƏD

Hesabat sənədinə əsasən, 2024-cü ildə Azərbaycan ikitərəfli və çoxtərəfli əsasda 38 ölkə ilə 201 sənəd imzalayıb. Həmçinin, bu il yanvarın 1-nə Azərbaycan dünyanın nüfuzlu inkişaf bankları və fondları, həmçinin müxtəlif beynəlxalq maliyyə təşkilatları ilə 217 kredit sazişi imzalayıb. Sənədə əsasən, bu sazişlər ölkənin sosial-iqtisadi inkişafı üçün vacib əhəmiyyət kəsb edən sahələr üzrə 174 layihənin maliyyələşdirilməsini təmin edib. İmzalanmış sazişlərdən 105-nin müddəti başa çatıb, 112-si qüvvədədir.

### AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ 2 615 AİLƏ MƏSKUNLAŞIB

İşğaldan azad edilmiş ərazilərdə görülən işlərə dair hesabat mətnində bildirilir ki, 2021-2024-cü illərdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən 17,6 milyard manat, o cümlədən 2024-cü ildə 5,35 milyard manat vəsait ayrılıb. "2025-ci ildə bu istiqamətdə 4 milyard manat vəsait ayrılması nəzərdə tutulub", - deyə baş nazir qeyd edib.

Ötən il ölkə ərazisində məskunlaşmış 2 615 ailə olmaqla 10 min 233 nəfər Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Laçın, Kəlbəcər, Şuşa, Ağdərə, Xocalı və Xocavəndə köçürülüb.

2021-ci ildən etibarən Zəngilan rayonunda 2 220 hektar əkin sahəsi (o cümlədən 720 hektar örüşün), Qubadlı rayonunda isə 2 000 hektar əkin sahəsi uzunmüddətli (40 il), 2024-2025-cü təsərrüfat ili üçün isə 60,8 min hektar əkin sahəsi üzrə isə qısamüddətli (11 ay) icarə müqavilələri bağlanılıb.

### 3 032,4 KİLOMETR YOL SALINIB

İşğaldan azad edilmiş ərazilərdə 2024-cü ildə ümumi uzunluğu 3 032,4 kilometr təşkil edən yol salınıb. Sənədə əsasən, ötən il Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Ağdam, Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun, Şuşa-Laçın, Xudafərin-Qubadlı-Laçın, Əhmədbəyli-Füzuli-Şuşa, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd və Toğanalı Kəlbəcər-İstisu avtomobil yollarının inşasını aparıb, 35 avtomobil yolunun layihələndirilməsini və tikintisini yerinə yetirib, o cümlədən respublika əhəmiyyətli 875,4 kilometr və yerli əhəmiyyətli 2 157 kilometr yol salıb.

### İMTİYAZLI ŞƏXSLƏRƏ 800 MƏNZİL VERİLİB

Hesabatda bildirilir ki, 2024-cü ildə imtiyazlı şəxslərə ümumilikdə 800 mənzil, 93 avtomobil təqdim edilib. Keçən ildə həmçinin, İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) müvəkkil bankları 4 685 ipoteka krediti verib. Bu, 2023-cü illə müqayisədə 16,3% azdır. Ötən il 3 609 (əvvəlki ilə nisbətən 7,5% az) adi, 1 076 (36,7% az) güzəştli ipoteka krediti verilib.



Əli Əsədov

## BEŞ MİLYARDLIQ VERGİ BORCU LƏĞV EDİLİB

İqtisadi məqamlara gəldikdə isə, 2024-cü ildə Azərbaycanda 202,1 min vergi ödəyicisinin 5 milyard 537,9 milyon manat vergi borcu yaranıb, 189,5 min vergi ödəyicisinin 5 199,6 milyon manat vergi borcu ləğv edilib. Bu, 2023-cü illə müqayisədə müvafiq olaraq 6,1% az, 12,2% çox, 10,1% az və 5,7% azdır.

### TİBBİ XİDMƏTLƏR ZƏRFİ GENİŞLƏNDİRİLƏCƏK

Baş nazir qeyd edib ki, qarşıdakı dövrdə tibbi xidmətlər zərfinin genişləndirilməsi nəzərdən keçirilir. Onun sözlərinə görə, hesabat ilində səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və əlçatanlığın təmin olunması məqsədilə əhalinin icbari tibbi sığortalanması və bu sahədə bir sıra dövlət proqramlarının icrası üzrə büdcədən bir milyard 368 milyon manat vəsait ayrılıb.

Hesabata əsasən, bu il Bakı şəhəri və regionlar üzrə 235 məktəbəqədər təhsil müəssisəsində cari təmir işlərinin aparılması nəzərdə tutulur.




# ÇAĞIRIŞLARIN FÜRSƏTƏ ÇEVRİLMƏSİ

**Budəfəki Qlobal Foruma maraq böyükdür. Tədbirdə dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadim, o cümlədən azı 50 fəaliyyətdə olan və sabiq prezident, baş nazir, həmçinin BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlər iştirak edirlər.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bakı növbəti Qlobal Foruma ev sahibliyi edir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə reallaşan Forum "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" kimi çox aktual bir mövzuya həsr olunub. Qeyd edək ki, budəfəki Forumda dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadim, o cümlədən azı 50 fəaliyyətdə olan və sabiq prezident, baş nazir, həmçinin BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlər iştirak edirlər.

### FORUMA MARAQ İLDƏN-İLƏ ARTIR

İldən-ilə əhatə dairəsini genişləndirən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq platformaya çevrilib. Bakıda təşkil olunan, dünya üçün çox aktual məsələlərin müzakirə edildiyi tədbirlərə maraq da artmaqdadır. Bu tədbirlərdə müxtəlif ölkələrin dövlət və hökumət başçılarının, aparıcı beyin mərkəzləri və beynəlxalq təşkilatların təmsilçilərinin iştirakı qarşıya qoyulan hədəflərə çatmaq yollarının tapılmasında mühüm əhəmiyyət daşıyır. Bu gün kataklizmlərlə çalxalanan beynəlxalq aləmdə bu problemlərdən çıxış yollarının tapılması ən ümdə vəzifə kimi ön planda tutulur. Təbii ki, Bakının bu məsələdə öncül yerlərdən birinə sahib olması onun COP29, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlara sədrliyi ilə mütənasiblik təşkil edir. Azərbaycan Prezidenti İlham Əliyevin Forumda bir çox aktual mövzulara həsr olunan çıxışı isə həm ölkəmiz, həm də bölgəmizlə bağlı bir çox reallıqların dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında müstəsna əhəmiyyətə malikdir.

## Pan-Avropa enerji təchizatçısı

Prezident İlham Əliyev Forumda çıxışı zamanı bir çox məqamlara toxunub. Dövlət başçısı COP29 və Azərbaycanın enerji siyasətinə dünyada olan münasibəti açıqlayıb. Onun sözlərinə görə, Azərbaycanda COP29-u təşkil etmək qərarı ölkəmizin öz enerji sərvətlərinə çox məsuliyyətli yanaşmasından irəli gəlir. "Təsadüfi deyil ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı kimi tanıyır. Bir sözlə, bu gün Azərbaycandan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və əslində, onun möhkəmləndirilməsində həqiqətən böyük dəyişiklik yaradır", - Prezident bildirib. Qeyd edib ki, bir ölkə üçün təkcə enerji sərvətlərinin olması kifayət deyil. Gərək dövlət qonşuları, onların qonşuları ilə yaxşı münasibətdə olsun ki, enerji, təhlükəsizlik və bağlantı layihələrini icra edə bilsin.

### "BƏLİ, CƏNAB" DEMƏYƏN ÖLKƏ

COP29-a qarşı aparılan kampaniyaya toxunan dövlət başçısı bildirib ki, bu qlobal beynəlxalq tədbir bəzi Qərb medialarında kampaniya ilə müşayiət olundu: "Prezident Tramp onları yalan, saxta xəbər adlandırır və onunla tam razıyam. Bu, Azərbaycanı gözdən salmaq, bizi qaralamaq, şayiələr və müxtəlif dezinformasiya yaymaq kampaniyası idi". Dövlət başçısı qeyd edib ki, bütün bunlar iki mərkəzdən qaynaqlanırdı. Birincisi, ABŞ-nin Dövlət Departamenti, digəri isə Fransa prezidentinin ofisi. "Onlar o faktla razılaşa bilmirdilər ki, burada, Qafqazda öz milli maraqlarını güdən ölkə, yəni böyük boslar qarşısında hər zaman "bəli, cənab" deməyən ölkə var", - Prezident bildirib.

### ERMƏNİSTANIN YENİ AĞASI

Azərbaycan Prezidenti bölgədə sülh danışıqlarına maneə yaradan təşkilatlar və mərkəzlər haqqında da Forum iştirakçılarını məlumatlandırıb. Onun sözlərinə görə, Donald Trampın qələbəsinə qədər Ermənistanın ağaları Dövlət Departamenti, USAID idisə, indi Brüsseldir: "Məhz indi ciddi problemlərlə üzləşən Menendes kimi rüşvətxor Amerika siyasətçiləri idi. Menendes siyahıda hələ sonuncu deyil. Necə deyərlər, bir qaranquşla bahar olmur. Xeyli digərləri var ki, erməni pulunu ciblərinə qoyurlar. Mən onların adını çəkə bilərəm, adları məlumdur: cənab Adam Şif, cənab Frenk Pallone, xanım Nensi Pelosi və bir çox digərləri var. Onlar onilliklər ərzində Azərbaycana hücum çəkmək və onu gözdən salmaq üçün Birləşmiş Ştatlarda erməni diaspor təşkilatlarından pullar alıblar. Beləliklə, biz Prezident Trampa bataqlığın qurudulmasında uğurlar arzu edirik. Bu, asan deyil. Lakin edilməlidir. Həmçinin, biz USAID-in Azərbaycanda qeyri-qanuni fəaliyyəti ilə bağlı Amerikanın orqanları ilə məlumat mübadiləsinə hazırıq. Onlar insanlara necə rüşvət verirdilər?! Onlar qeyri-qanuni maliyyə kanallarından necə istifadə edirdilər?! Onlar Azərbaycanın qanunlarını və normalarını necə pozurdular?! İndi məsuliyyətli olmaq vaxtı yetişib. Biz əlimizdə olan bütün informasiyanı təqdim etməyə hazırıq".




### "ABŞ-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNİ UÇURUMDAN TAM XİLAS ETDİK"

Prezident Bakı-Vaşinqton münasibətlərinə də toxunub. Bildirib ki, Azərbaycan hazırda ABŞ-də baş verənləri maraqla izləyir: "Səbəb çox sadədir. Çünki cənab Antoni Blinkenin Azərbaycana aid siyasəti, əslində, 30 il qurduğumuz ABŞ-Azərbaycan münasibətlərini heçə endirdi. Biz hər zaman ABŞ-nin çox etibarlı, yaxın tərəfdaşı olmuşuq. Biz onlara lazım olanda onlarla idik. Biz onlara İraqda lazım olanda, qoşunla onlarla idik. Biz onlara Əfqanıstanda lazım olanda, 2001-ci ildə Əfqanıstanda əməliyyatlara qoşulan ilk qeyri-NATO ölkələrindən idik və oradan sonuncu çıxdıq. Lakin biz çıxandan sonra onlar bizə sanksiya tətbiq etdilər. Xatırlayıram ki, bu, Azərbaycanda böyük məyusluq yaratdı. Mən onların bəzi nümayəndələrinə söylədim ki, biz sizə necə inana bilərik? Biz sizə lazım olanda sanksiyanı dayandırırsınız. Biz sizə artıq lazım olmayanda, sanksiyanı yenidən tətbiq edirsiniz. Onda uzunmüddətli münasibətləri sizinlə necə qura bilərik?" Prezident əlavə edib ki, Dövlət Departamentinin bütün səylərinə baxmayaraq, ABŞ-Azərbaycan münasibətləri uçurumdan tam xilas edilib: "Ümid edirik ki, yeni Administrasiya ilə Cənubi Qafqaz, sülh, təhlükəsizlik, antiterror əməliyyatları, regionumuzun müasir inkişafı üçün hər zaman vacib olmuş güclü tərəfdaşlığımızı yenidən quracağıq".



# AZƏRBAYCAN AVROPADA GEOSİYASİ TƏSİRLƏRİNİ ARTIRIR

Azərbaycan Şimali Makedoniyaya qaz ixracını artırmağı nəzərdə tutur. Avropanın enerji təhlükəsizliyindəki etibarlı rol rəsmi Bakının bir sıra çağırışlarının da həllini sürətləndirir.



AQŞİN KƏRİMOV

Bu həftə Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova Azərbaycana səfər etdi. Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə təkbətək görüş keçirildi. Görüşdən sonra prezidentlər mətbuata birgə bəyanatla çıxış edərək iki ölkə arasındakı əlaqələr, onun dinamikası və perspektivləri barədə pozitiv açıqlamalar verdilər. Prezident İlham Əliyev siyasi, iqtisadi-ticari sahədə əlaqələrin güclənməsinin vacibliyinə də diqqət çəkib. Bildirib ki, iki ölkənin siyasi əlaqələrinin inkişafı üçün əlavə tədbirlər görülməlidir, müvafiq dövlət qurumları sıx təmasda olmalıdırlar. Eyni zamanda, iqtisadi sahədə, sərmayə qoyuluşu sahəsində imkanlar araşdırılmalıdır. "Əfsuslar olsun ki, bu günə qədər ticari-iqtisadi sahədə o qədər böyük nəticələr əldə edilməyib. Ancaq ümid edirəm ki, Sizin rəsmi səfərinizdən və nümayəndə heyətlərinin təmaslarından sonra biz bu boşluğu da dolduracağıq", - deyə İlham Əliyev əlavə edib.

Şimali Makedoniya Prezidenti isə Azərbaycanın beynəlxalq münasibətlərdəki fəallığını vurğulayaraq, münasibətlərdəki bütün sferalar üzrə inkişafın əhəmiyyətini qeyd edib. Bu, Azərbaycanın Avropada güclənən mövqeyi fonunda rəsmi Bakının "qoca qitə"dəki nüfuzunu daha da yüksəyə qaldıra biləcəyinə dair siqnallar verir.

### ŞİMALİ MAKEDONİYA İLƏ ƏLAQƏLƏRİN YARADACAĞI PORTFEL

Şimali Makedoniyanın xarici siyasəti Avropa və Avro-Atlantik inteqrasiya hədəfləri çərçivəsində formalaşır. 2020-ci ildə ölkənin NATO-ya üzvlüyü tamamlanıb və əlavə olaraq Avropa İttifaqına üzvlüyü üçün danışıqların başlanması qərarı qəbul edilib. Şimali Makedoniya əhalisinin 54 faizini makedonlar, 29 faizini albanlar, 3,9 faizini isə türklər təşkil edən çoxmillətli, çoxdinli və çoxmədəniyyətli bir dövlətdir. Bu ölkə Azərbaycanın strateji müttəfiqi olan Türkiyə ilə də güclü əlaqələrə və əməkdaşlığa malikdir. Bu baxımdan səfər Bakı-Ankara strateji müttəfiqliyinin Balkan regionunda formalaşan müştərək prioritetləri işığında şərh oluna bilər. Türkiyənin Balkan regionunda, o cümlədən Şimali Makedoniyada öz potensiallarından getdikcə daha çox istifadə etməsi onun strateji yanaşmalarını gücləndirir. Bu amil Azərbaycanın xarici siyasətindəki Balkan regionu üzrə aktiv və fəal strategiya izləməsinə geniş imkanlar açır. Bununla da Azərbaycan Avropanın təhlükəsizlik və sabitlik prioritetlərində Türkiyə ilə birgə çərçivələr yaradır. Bundan başqa, Azərbaycan və Türkiyə Avropadakı müsəlman-türk icmalarına xitab edən ideoloji istiqamətləri möhkəmləndirir. Bu isə həmin icmalarla iş prinsipi baxımından həm Azərbaycana, həm də Türkiyəyə əhəmiyyətli dəstəklər qazandırır.

## AZƏRBAYCANIN ENERJİ SİYASƏTİ EFFEKTİV VASİTƏ KİMİ

Azərbaycan hazırda 12 ölkəyə təbii qaz ixrac edir. Bu 12 ölkədən 10-u Avropa dövlətidir. Prezident İlham Əliyev mətbuata birgə bəyanat zamanı bildirib ki, Azərbaycanın müştərilərinin coğrafi yerləşməsi də Avrasiya məkanını əhatə edir. "Keçən il Azərbaycan xarici bazarları 25 milyard kubmetr qaz ilə təchiz etmişdir. Təbii ki, bizim istehsalımız bundan daha çoxdur. Çünki biz yerli tələbatı da ödəyirik. Ancaq əhatə dairəsi, qaz təchizatımızın coğrafiyasının genişləndirilməsi də gündəlikdə duran məsələdir. Avropa Azərbaycan qazına ehtiyac duyur", - deyə İlham Əliyev bildirib.

Azərbaycan Şimali Makedoniyanı da qazla təchiz edir və həmin həcmin artırılması nəzərdə tutulur. Qordana Silyanovska-Davkova ölkəsinin aldığı qazı Azərbaycanın beynəlxalq geosiyasi səhnədəki mühüm yerləşməsi fonunda qiymətləndirib. Bu, eyni zamanda Azərbaycanın geoiqtisadi portfelidir və yaranan yeni iqtisadi-ticari müstəvidə rəsmi Bakının maraqlarının ifadəsinə geniş yol açır. Azərbaycanın Avropanın enerji



təhlükəsizliyindəki etibarlı rolu təbii ki, bir sıra çağırışların da həllini sürətləndirir.

### ÇOXSAHƏLİ ƏMƏKDAŞLIQ PERSPEKTİVİ

Qarşı tərəflər Azərbaycanın maraq və məqsədlərinin təmin olunması istiqamətində qarşılıqlı olaraq jest edirlər. Bu, viza tələbləri kimi inzibati prosedurların aradan qaldırılmasından tutmuş, mədəni, təhsil sahələrindəki qarşılıqlı inteqrasiya sahələrinə qədər geniş spektri əhatə edir. Şimali Makedoniya Prezidenti deyib ki, Azərbaycanla ölkəsi dərhal diplomatik və xidməti pasport sahibləri üçün viza tələbinin tətbiqi kimi təəccüblü bir vəziyyətə son qoyacaq. "Zənnimcə, bu, nə Şimali Makedoniyanı, nə də Azərbaycanı qane edən vəziyyət deyil və bu addımın atılması iki xalq arasında yaxınlaşmaya xidmət edəcəkdir. Ümid edirəm ki, biz Azərbaycanın mədəniyyətini də tanımağa davam edəcəyik. Bundan əlavə, elm sahəsində də universitetlərimiz arasında əməkdaşlığın qurulmasına nail ola bilərik", - deyə o bildirib.

Şimali Makedoniya ilə Azərbaycan əlaqələrinin enerjisi Bakı ilə strateji tərəfdaşlıq sazişinin imzalanmasını zəruri edir. Təsadüfi deyil ki, Prezident Qordana Silyanovska-Davkova da belə bir sazişin imzalanması üçün maneə görmədiyini deyib.

### TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ İMKANLARI

Azərbaycan Avropada geosiyasi təsirlərini bir neçə faktorla genişləndirir. Diplomatik əlaqələr, regionda sabitlik və təhlükəsizlik, Avropadakı türk-müsəlman icması ilə əməkdaşlıq rəsmi Bakının enerji siyasətinin müşayiətində xüsusi dəyər qazanır. Bu baxımdan Azərbaycan Şimali Makedoniya ilə də təhlükəsizlik sahəsində əməkdaşlıq imkanları qazanır və Türkiyə ilə strateji müttəfiqliyi, NATO ilə əməkdaşlığı da bu məsələlərdə önəmli rol oynayır.

# “GƏLƏCƏYİMİZİ ÖZÜMÜZ QURURUQ”

Prezident İlham Əliyev: “Əgər siz həmişə kiminsə yardımına bel bağlasanız, birincisi, bu sizi zəiflədəcək, ikincisi, bu yardımın daimi olacağına dair heç bir zəmanət yoxdur, üçüncüsü də siz suverenliyinizin bir hissəsini itirmiş olursunuz”.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də XII Qlobal Bakı Forumu zamanı “Euronews” televiziyasına müsahibə verib.

### “BİLDİYİMİZ DÜNYA NİZAMI ARTIQ MÖVCUD DEYİL”

Prezident Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunub. Onun sözlərinə görə, artıq açılış sessiyasından da bəlli olur ki, burada müxtəlif fikirlərin kombinasiyası mövcuddur: “Onlar heç də üst-üstə düşmür və bunun özü müsbət haldır. Əminəm ki, panellər çərçivəsində daha da qızğın müzakirələr aparılacaq. Beləliklə, bu Forumda hər zaman yeni ideyalar meydana gəlir və beynəlxalq məsələlərə yanaşmanın formalaşmasında Forumun vacib rolu var”.

“Sizcə bizim hamımızın qlobal səviyyədə üzləşdiyi əsas çağırışlar nədən ibarətdir” sualını cavablandıran dövlət başçısı qeyd edib ki, bu gün hər kəs tərəfindən bölüşülən fikir hazırda yeni qaydaların müəyyənləşdirilməsi prosesinin baş verməsidir: “Bildiyimiz dünya nizamı artıq mövcud deyil. Hələ ki, beynəlxalq ictimaiyyət tərəfindən istifadə olunacaq qarşılıqlı əlaqə konfiqurasiyası heç kəsə bəlli deyil. Buna dair fərqli fikirlər var. Lakin aydın olan odur ki, birincisi, hər bir ölkə özünün daxili işlərinə və daxili imkanlarına daha çox diqqət ayırmalı, hər hansı bir yardıma və hətta beynəlxalq hüquqa arxalanmamalıdır. Beynəlxalq hüququn selektiv tətbiqinin qurbanı olan Azərbaycanın gələcəyini daxili resurslar hesabına qurması baxımından böyük təcrübəsi var.

İkincisi, gələcək üçün vacib məsələlərdən biri odur ki, ölkələr beynəlxalq təsisatlar çərçivəsində fəaliyyətə deyil, ikitərəfli münasibətlərə daha çox əhəmiyyət verəcəklər. Çünki bu gün bəzi beynəlxalq təşkilatlar ya öz zəifliyini nümayiş etdirir və ya tamamilə iflic vəziyyətindədir. Əlbəttə, biz hələ ki, qlobal transformasiyanın ilkin mərhələsindəyik və bir çox məsələ hadisələrin gedişatından asılı olacaq”.




## “HAZIRDA NİSBƏTƏN SAKİT DÖVRDƏYİK”

Prezident qeyd edib ki, ətrafımızda baş verən böhranlardan regionumuzun qorunması vacib məsələdir. Təəssüflər ki, onilliklər ərzində Cənubi Qafqaz qarşıdurma və düşmənçilik bölgəsi olub: “Hazırda nisbətən sakit dövrdəyik və biz diqqətimizi buna yönəltməliyik. Biz növbəti hərbi qarşıdurmanı istisna edəcək əhatəli təhlükəsizlik mexanizmləri yaratmalıyıq və Sovet dövründə olduğu kimi qonşuluq şəraitində yaşamağa çalışmalıyıq.

Bəli, biz o zaman müstəqil dövlətlər deyildik, gələcəyimizi planlaşdırmaq iqtidarında deyildik və böyük mənada mərkəzi Sovet hakimiyyətindən asılı vəziyyətdə idik. Ancaq ən azından Cənubi Qafqaz respublikaları arasında fəal təmaslar var idi. Yəni, biz belə bir təcrübəyə malikik və sadəcə bunu nəzərimizdə saxlamalıyıq. Bu regionla əlaqədar biz geosiyasi transformasiyalar ilə bağlı geridə qalmamalı, diqqətimizi regional problemlər və regional fürsətlər üzərində cəmləşdirməliyik”.

### “BİZİM TƏCRÜBƏMİZ UĞURLU OLMUŞDUR”

Rusiya-Ukrayna məsələsi, Yaxın Şərqdə cərəyan edən hadisələrlə bağlı da danışan Prezidentin sözlərinə görə, biz qlobal nizamı olduqca düzgün qiymətləndiririk. Milli maraqlarımız məsələsində biz heç kəsə və ya heç bir təsisata arxalanmamışıq: “Olsun Rusiya-Ukrayna müharibəsi, yaxud Yaxın Şərqdəki hadisələr və Afrikadakı gərginlik - hər bir ölkə anlamalıdır ki, o öz taleyinin sahibidir.

Onlar bunu nə qədər tez başa düşsələr bu, onlar üçün bir o qədər də yaxşı olar. Çünki əgər siz həmişə kiminsə yardımına bel bağlasanız, birincisi, bu sizi zəiflədəcək, ikincisi, bu yardımın daimi olacağına dair heç bir zəmanət yoxdur, üçüncüsü də siz suverenliyinizin bir hissəsini itirmiş olursunuz. Çünki əgər siz həmişə kimdənsə asılısınızsa və həmişə kimdənsə yardım istəyirsinizsə, onda bir gün gələcək həmin şəxs gəlib sizdən hesabat istəyəcək.

Bizim təcrübəmiz uğurlu olmuşdur və onun uğurlu olması sübuta yetirilmişdir. Yəni biz öz resurslarımıza güvənirdik, biz suverenliyimizi və ərazi bütövlüyümüzü özümüz bərpa etdik və indi də gələcəyimizi özümüz qururuq. Hesab edirəm ki, bu, çox vacib bir nəticədir və bu, təkcə nəzəriyyə deyil, bu, Azərbaycanda baş verənlərdir”.

## “MƏN REALİST OLMAĞA ÜSTÜNLÜK VERİRƏM”

“Gələcəyə baxışınıza gəldikdə, bu qlobal sabitliyin yekunda haraya gedəcəyini görürsünüz? Sizcə, biz buna nail olacağıq” sualının cavabında dövlət başçısı bu məsələdə o qədər də nikbin olmadığını bildirib: “Mən realist olmağa üstünlük verirəm. Növbəti aylar və ya hətta illərdə sabitliyə nail olacağımızı düşünmürəm. Rusiya-Ukrayna müharibəsindən söhbət gedirsə, hətta müharibə dayansa belə, müharibənin yenidən başlamayacağına dair heç bir zəmanət yoxdur. Bir vaxtlar demək olar ki, otuz il ərzində bizdə - Azərbaycan və Ermənistan arasında atəşkəs razılaşması var idi. Bu razılaşmaya 1994-cü ilin yazında nail olunmuşdur. Lakin bu müharibənin sona çatması demək deyildi. Sadəcə transformasiya baş vermişdir və müharibə yalnız sülh sazişi imzalananda bitir.

Hətta indiki dövrdə, İkinci Qarabağ müharibəsinin bitməsindən beş il keçməsinə baxmayaraq, bizim Ermənistanla sülh müqaviləmiz yoxdur. Bəli, sakitlikdir, itkilər yoxdur və bu da bugünkü vəziyyətin böyük üstünlüyüdür. Lakin sülh sazişi imzalanana qədər burada sabitlik olmayacaq.

Eyni yanaşmanı dünyanın bütün digər hissələrinə - Yaxın Şərqə və Afrikaya da şamil etmək olar. Əfsuslar olsun ki, münaqişələrin sayı artmaqdadır və əgər siz öz həllini tapmış münaqişə axtarsanız, görə bilərsiniz ki, sadəcə burada, Qarabağda olan münaqişə öz həllini tapıb. Bu, beynəlxalq hüquq, tarixi ədalət əsasında həllini tapmış yeganə münaqişədir. Bu həlli bütün dünya qəbul edir”.

# “KÖHNƏ” VƏ “YENİ DÜNYA”NIN SAVAŞI



Donald Trampın prezidentliyi dünyaya sürprizlər yaşatmaqda davam edir. Vaşinqtonun Avropadan uzaqlaşmaq xətti götürdüyünü iddia edənlərin sayı da artmaqdadır. Ağ Evdə Ukrayna Prezidenti Volodimir Zelenski ilə yaşanan gərginlik bu münasibətlərə xüsusi çalar gətirib.



**AZƏR NURİYEV**

ABŞ ilə Avropa arasında münasibətlər xaotik, nizamsız halda inkişaf edir. Elə gün olmur ki, həm ABŞ-dən, həm də Avropadan bu istiqamətdə ağlasığmaz ideya və təşəbbüslər ortaya atılmasın. Görünür ki, Donald Trampın prezidentliyi dünyaya sürprizlər yaşatmaqda davam edəcək. Vaşinqtonun Avropadan uzaqlaşmaq xətti götürdüyünü iddia edənlərin sayı da artmaqdadır. Ağ Evdə Ukrayna Prezidenti Volodimir Zelenski ilə yaşanan gərginlik bu münasibətlərə xüsusi çalar gətirib. Müsbət olan odur ki, Tramp-Zelenski görüşündən sonra Rusiya ilə Ukrayna arasında müharibənin dayandırılması ilə bağlı danışıqlar start götürüb. Hətta Ukraynanın müvəqqəti atəşkəsə razılıq verdiyi barədə xəbərlər də yayılıb.



Marko Rubio

### UKRAYNADA MÜHARİBƏ BAŞA ÇATIR?

Kiyev və Vaşinqtonun Səudiyyə Ərəbistanında martın 11-də keçirilən danışıqlarında davamlı sülhü bərpa etmək üçün addımlar atması ümidlərə yol açıb. Doqquz saat davam edən danışıqlarda qeyd olunub ki, Kiyev kəşfiyyat məlumatlarının mübadiləsi də daxil olmaqla, ABŞ yardımının bərpası müqabilində 30 günlük atəşkəsə razılıq verib. Volodimir Zelenski deyib ki, atəşkəs təklifi, əvvəllər təklif olunduğu kimi, təkcə hava və dənizə deyil, cəbhə xəttinə də şamil edilir. Tərəflər həmçinin nadir torpaq metalları ilə bağlı sazişin mümkün qədər tez əldə olunması barədə razılığa gəliblər. ABŞ dövlət katibi Marko Rubio Rusiyanın ən yaxın zamanda atəşkəsə razılaşacağına ümid etdiyini bildirib: “Ümid edirik ki, ruslar mümkün qədər tez “hə” deyəcəklər və biz sonsuz dialoqlar deyil, real danışıqlardan ibarət ikinci mərhələyə keçə biləcəyik”. ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Mayk Uolts Ukrayna ilə danışıqların nəticələrini və atəşkəsi müzakirə etmək üçün yaxın vaxtlarda Rusiya nümayəndələri ilə görüşmək niyyətində olduğunu bildirib.

### YENİ YARDIM PAKETİNİ MACARISTAN BLOKLAYA BİLƏR

Ekspertlər hesab edir ki, Ukrayna ABŞ-nin Ciddə danışıqları zamanı irəli sürdüyü 30 günlük müvəqqəti atəşkəsin dərhal tətbiq edilməsinə razılıq verməyə hazır olduğunu bildirməklə Rusiyanı çətin vəziyyətə saldı. Əgər Kreml atəşkəsə razılaşmasa, bu, ABŞ-də narazılıq yaradacaq. Qeyd olunur ki, Tramp Putinin Ukrayna ilə bağlı əsas tələblərini qəbul edib. Bu tələblər aşağıdakılardır - Ukrayna NATO üzvü olmayacaq. Krım və Ukraynanın şərq bölgələri Rusiyanın nəzarətində qalacaq.

Avropa mediasının gözləntilərinə görə, Avropa İttifaqı liderləri “Ukrayna haqqında Ukraynasız heç nə” prinsipini təsdiqləyəcək, ölkənin suverenliyi və ərazi bütövlüyünə sadiqliklərini vurğulayacaqlar. Bu yanaşma Rusiyanın tələbləri və ABŞ-nin ərazilərin güzəştə gedilməsi çağırışı ilə ziddiyyət təşkil edir. Eyni zamanda, blokun bütün dövlətləri Ukraynaya daha çox dəstəklə razı deyil. Yeni yardım paketini Macarıstan bloklaya bilər.



Ursula fon der Lyayen

## AVROPA MÜDAFİƏ İTTİFAQI İDEYASI

Ukrayna ilə bağlı danışıqların tam vüsət aldığı məqamda özünü kənarda hiss edən Avropa ciddi narahatdır. Belə ki, ABŞ-nin NATO-dan da çıxa biləcəyi ehtimalı var. Avropada isə Avropa Müdafiə İttifaqından danışılır. Bəs bunlar baş verərsə, vəziyyət necə olacaq? Avropanın təhlükəsizliyinin qarantı kim olacaq? Bu təminatı Fransa və Böyük Britaniyanın verə biləcəyi ehtimal edilsə də, onların Avropada nə gücü, nə də siyasi nüfuzu yetərli deyil. Eyni zamanda, Almaniya da bu məsələdə istəksiz görünür.

Avropa Komissiyasının sədri Ursula fon der Lyayen ABŞ-nin Avropaya qarşı davam edən bəyanatlarına cavab olaraq bildirib ki, Avropa sülh içində yaşamaq istəyir, lakin onun təhlükəsizlik nizamı sarsılır və bir çox illüziyalar dağılır. Buna görə də qitədə sülhü təmin edəcək Avropa Müdafiə İttifaqını qurmağın vaxtı gəlib. Çünki Avropa təhlükəsizlik böhranı ilə üzləşib. Onun sözlərinə görə, Aİ-nin son təcili sammitində tərəflər Avropa müdafiəsi üzrə yüksək konsensus nümayiş etdiriblər. “Soyuq müharibə”nin bitməsindən sonra bəziləri düşünürdülər ki, Rusiyanı Avropanın iqtisadi və müdafiə arxitekturasına inteqrasiya etmək olar. Digərləri ümid edirdilər ki, biz sonsuz olaraq Amerikanın tam müdafiəsinə güvənə bilərik. Buna görə də biz sayıqlığımızı zəiflətdik. Biz müdafiə xərclərimizi adi 3,5%-in də yarısından az səviyyəyə endirdik. Biz sülh dividendlərindən faydalandığımızı düşünürdük. Lakin reallıqda biz sadəcə təhlükəsizlik kəsiri yığırdıq”, - deyə AK-nın rəhbəri bildirib. Onun sözlərinə görə, milli büdcələr səfərbər edilməlidir. “Bu gün biz ÜDM-nin 2%-dən az hissəsini müdafiəyə xərcləyirik. Bütün təhlillər göstərir ki, 3%-dən yuxarı göstəriciyə doğru irəliləmək lazımdır”, - deyə fon der Lyayen bildirib. Əlavə edib ki, bu istiqamətdə 650 milyard avroya qədər vəsait səfərbər edə bilərlər. Onunla həmfikir olan digər Aİ rəhbərləri də hesab edirlər ki, qitədə birlik və güc vasitəsilə sülhü təmin edəcək Avropa Müdafiə İttifaqını qurmaq vaxtı gəlib.

### ABŞ-YƏ QARŞI 18 MİLYARD AVROLUQ CAVAB TƏDBİRLƏRİ

Vaşinqton-Brüssel gərginliyi tək hərbi və təhlükəsizlik yox, iqtisadi sahədə də davam edir. Avropa Komissiyası ABŞ-nin ixracına qarşı yeni əks-tədbirlər paketi irəli sürəcək. Onlar aprelin ortalarına qədər qüvvəyə minməlidir. Cavab tədbirləri 18 milyard avro məbləğində mallara təsir edəcək.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# SON SÖZ YENƏ DƏ AZƏRBAYCANINDIR

Rəsmi Bakının danışıqların başa çatmasını elan etməsinin ardınca İrəvanın tələsik və gizlədilməyən sevinc dolu reaksiyası ona dəlalət edir ki, Paşinyan hökuməti Azərbaycanla sülhün əldə edilməsinə tələsir. Hərçənd bu, aldadıcı fon yaratmaq cəhdi də ola bilər.



RÜSTƏM QARAXANLI



44 günlük Vətən müharibəsindən sonra Azərbaycanla Ermənistan arasında davam edən yekun sülh sazişinə dair danışıqlar nəhayət ki, başa çatdı. Azərbaycanın XİN rəhbəri Ceyhun Bayramovun XII Qlobal Bakı Forumu çərçivəsində İrəvanın Bakının son iki maddə ilə bağlı tələblərini də qəbul etdiyini deməsi və sülh müqaviləsi ətrafında danışıqların yekunlaşdığını anons etməsinə Ermənistandan reaksiya özünü çox gözlətmədi. Xarici işlər naziri Ararat Mirzoyanın ofisi müzakirə və gərgin mübahisə predmeti olan 17 maddədən ibarət müqavilənin üzərində işlərin tamamlandığını doğrultmaqla ən çox vaxt alan məqamların - Ermənistanın konstitusiyasında ediləcək dəyişikliklərin və iki dövlət arasındakı sərhəddə üçüncü tərəfin mövcudluğunu istisna edən tələblərin qəbul edildiyini təsdiqlədi.

### İRƏVAN NİYƏ TƏLƏSİR?

Rəsmi Bakının danışıqların başa çatmasını elan etməsinin ardınca İrəvanın tələsik və gizlədilməyən sevinc dolu reaksiyası ona dəlalət edir ki, Paşinyan hökuməti Azərbaycanla sülhün əldə edilməsinə tələsir. Hərçənd bu, aldadıcı fon yaratmaq cəhdi də ola bilər. Prezident İlham Əliyevin XİN rəhbərinin məlum bəyanatının verildiyi anda, yeni XII Qlobal Bakı Forumunun açılış mərasimində Bakının İrəvana inanmadığını bir daha vurğulaması, özü də bunu beynəlxalq ictimaiyyətin düşünən beyinləri qarşısındakı çıxışında etməsi onu göstərir ki, Ermənistanın razılığı Azərbaycan paytaxtında maksimum şəkildə ehtiyatlı optimizm olaraq qəbul edilir. Bunun üçün kifayət qədər əsas var və Azərbaycan Ermənistanla 30 illik qarşıdurma tarixinin sürprizlərini diqqətə almaya bilməz. Dövlət başçısının Paşinyandan yazılı təsdiq tələb etməsi onu göstərir ki, İrəvanın xarici təzyiqlərə tab gətirməyərək verdiyi sözdən dönməsi kimi təhlükə hələ də mövcuddur.

Bəs nədən İrəvan hərəkətlərində bir xaotiklik və tələskənlik göstərir? Hansı səbəbdən Ermənistanın xarici siyasətinə məsul şəxslər sülh müqaviləsini dərhal imzalamağa hazır olduqlarını nümayiş etdirirlər və yaxud ən azı belə bir görüntü yaratmağa çalışırlar? Çox güman ki, bunun başlıca səbəbi hakim komandanın bir gözünün gələn il keçirilməsi gözlənilən parlament seçkilərində olmasıdır. Ermənistan parlamentli respublikadır və Paşinyanın bir baş nazir olaraq gələcək aqibəti də məhz seçki kampaniyasının nəticələrindən asılıdır. Ermənistanın hakim qüvvəsi əhaliyə göstərmək istəyir ki, xalqın və ölkənin qarşısında duran ən taleyüklü problemin çözümünə nail olub. Daha erməni xalqının övladları müharibəyə yollanmayacaqlar, ölkə iqtisadi tənəzzüldən qurtulmaq üçün real fürsətlər əldə edib. Yeni reallıq dövlətlə yanaşı, hər bir fərdin də rifah halına təsir göstərmiş olacaq - sərhədlər açılacaq, kommunikasiyalar bərpa olunacaq, ticarət dirçələcək. Paşinyan seçkilərə məhz bu şüarlarla gedəcək deyə, Azərbaycanla əldə edilən sülhün belə tələskənliklə elan edilməsini həm də təbliğat kampaniyasının başlanğıcı kimi dəyərləndirmək olar.



Ceyhun Bayramov

Nikol Paşinyan

## Paşinyan niyə razılığa gəldi?

Bütün şübhələri bir kənara qoyub İrəvanın niyyətinin saflığına inansaq və Paşinyanın hipotetik sülhün tərəfdarı olduğunu düşünsək belə, ortaya olduqca vacib sual çıxır: Niyə? Hansı səbəbdən Ermənistan müxtəlif bəhanələrlə uzatdığı, xarici təsirlərlə ümidlənib əngəllər yaratdığı sülh gündəmini qəbul etdi? Paşinyan hansı maneələri dəf edə bildi ki, önündə Azərbaycanla sülhə gəlmək üçün heç bir həddin qalmadığına əmin oldu?

Son bir neçə ayın geosiyasi trafiki ona dəlalət edir ki, İrəvanın hətta ehtimalən belə sülhə gəlmək qərarını diktə edən əsas amillər daxili deyil, xarici mənbəlidir. Ermənistan cəmiyyətində revanşist qüvvələr var və güman ki, hər zaman olacaqlar. Onların qarşıdakı günlərdə və aylarda sülh müqaviləsinə qarşı silsilə aksiyalar keçirəcəklərinin şahidi olacağıq. Nə qədər ki, Qarabağ klanının qanlı nümayəndələri yaşayırlar, erməni cəmiyyətindəki ekspansionist ab-hava tükənməyəcək. Ona görə də Paşinyanın daxildə hansısa maneəni aşdığını düşünmək bir qədər çətindir.

İrəvanın Azərbaycanın kritik iki tələbini qəbul etməyə məcbur olması formalaşmış beynəlxalq konyunktura da bağlıdır. Bayden adminsitrasiyasının gedişindən sonra okeanın o tayında olan dayaqlarını itirmiş Ermənistan hakimiyyəti istədiyini artıq Avropada da tapa bilmir. Makron əvvəlki kimi qonaqpərvər və əliaçıq deyil. İndi onun başı cəmi 20%-lik dəstəklə daxildəki problemlərinə qarışıb. Fransa və Avropa İttifaqının Trampın kömək əlini çəkməsi nəticəsində Rusiya ilə üz-üzə qalmaları Ermənistan kimi ucqarları avtomatik olaraq arxa plana keçirir. Ermənistan Qərbi Avropanın yaxşı gününün oyuncağıdır və təəssüf ki, bu qədər zamanı bada verən Paşinyan ötən illər ərzində bu reallığı ya dərk etmədi, ya da edə bilmədi. Qərbdəki hamilərindən olan və 2018-ci ildən bu yana mərhələlərlə Rusiya ilə körpüləri yandıran Paşinyanın düşdüyü çıxılmaz vəziyyət onun Azərbaycanla sülhə gəlməsinin əsas və mühüm səbəbidir. Bölgə reallıqlarından qaçan, xoşbəxtliyi uzaq Qərbdə axtaran hazırkı Ermənistan müttəfiqi Rusiyanı da itirməklə, faktiki olaraq, Azərbaycan və Türkiyənin nəzarətinə keçməyin astanasındadır. Müxalifət və revanş aşiqlərinin qaldıracaqları ümumxalq isterikası da bu mürəkkəb dalandan çıxmaq üçün yetərli olmayacaq.

### SÜLH MÜQAVİLƏSİ NƏ VAXT VƏ HARADA İMZALANACAQ?

Ermənistan mediasında artıq mümkün sülh müqaviləsinin imzalanma yeri və tarixi barədə ehtimallar da səslənməyə başlayıb. Hadisələrin arxasınca sürünən erməni cəmiyyətinin belə görünür ki, seyrçi olmaqdan başqa əlacı da qalmayıb.

Sülh müqaviləsinin imzalanacağı yerə gəldikdə isə istisna deyil ki, belə təkliflərlə çıxış edənlər çox olacaq. Çoxları ev sahibliyi etməklə problemin çözümünə şərik çıxmağa çalışacaq. Ancaq reallıq budur ki, bu sülhün bir müəllifi var - dəmir iradəli lideri, cəsur ordusu olan Azərbaycan xalqı. Odur ki, son söz yenə də bizdədir!



AZƏRBAYCANLI ZEYNƏB CAMALOVA VƏ KOREYALI EO İNKYUNUN SEVGİ HEKAYƏSİ "KASPİ"DƏ

# BƏLƏDÇİLİKDƏN DOSTLUĞA, DOSTLUQDAN SEVGİYƏ



SÖHBƏTLƏŞDİ
ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Kim inanar ki, sən Cənubi Koreyaya köçmək üçün dillərini öyrənirsən. Lakin həmin ölkənin vətəndaşı səni elə öz ölkəndə tapır. Üstəlik, ikiniz də bir-birinizin dilini bilmirsiniz. Amma necə olursa, çox gözəl anlaşırsınız. Bəlkə də qəlblər ta əzəldən bir-birinin parçası olduğunu hiss edib. Ona görə də hər ikisi bir-birini tapmaq üçün addım atıbmış. Bu hekayənin qəhrəmanları azərbaycanlı Zeynəb Camalova və koreyalı Eo İnkyudur.

**Zeynəb:** "İlk dəfə Koreyada toya gedəndə İnkyu dedi ki, bəzənmə. Mən isə onu dinləməyib bəzənib düzəndim, ən gözəl geyimimi geyinib getdim. Toyda şoka düşmüşdüm. Çünki qızlar cins şalvar və sadə köynəkdə gəlmişdilər. İşıq kimi parladığım üçün hamı mənə qəribə baxırdı".

### ÖLKƏMİZİ TANIMAQ ÜÇÜN GƏLDİ, KÜRƏKƏNİMİZ OLDU

Zeynəbin dediyinə görə, cütlüyün tanışlığına müəllimləri vəsilə olub: "Mən Koreya dilini öyrənmək üçün kursa gedirdim. O zaman İnkyu da Bakıya yeni gəlmişdi və Azərbaycan dilini öyrənmək istəyirdi. Atası Azərbaycanda çalışırdı. Yoldaşım da həmin dövrdə Azərbaycana turizm üzrə oxumaq üçün gəlmişdi. Müəllimim bildirdi ki, Azərbaycana Koreya vətəndaşı gəlib. Ona şəhəri tanıtmaq və Azərbaycan dili ilə bağlı praktik kömək etmək lazımdır. Şəklini göstərdikdə əvvəlcə "vaxtım yoxdur" dedim. Müəllimimin təkidi ilə razılaşdım, görüşdük. İnkyunun məndən elə ilk görüşümüzdə xoşu gəlib. İlk görüşdən bəyənməsəm də, sonradan mənə qarşı olan diqqəti, nəvazişi ona qarşı sevgimin yaranmasına səbəb oldu".

İnkyu da deyir ki, ilk görüş çox maraqlı olub: "Bir saatdan çox onu gözləmişdim. Hətta narahat oldum ki, görəsən gələcəkmi? Gələndə gördüm çox sakit, mehriban qızdır. Tərcümə proqramı ilə fikirlərini izah edirdi. Amma bizim qəlblərimiz danışırdı. Birlikdə oyunlar oynadıq".

### "YAXŞI Kİ, ONA ŞANS VERMİŞƏM"

Davamlı ünsiyyət onları bir-birinə yaxınlaşdırıb: "İnkyu ilk görüşümüzdən sonra hər gün görüşmək təklif edirdi. Özümə də onunla görüşmək maraqlı idi. Onu rəfiqələrimlə tanış etmişdim. O, məndən xoşu gəldiyini hər zaman həm sözlə, həm də hərəkətləri ilə bildirirdi. Amma mən İnkyunu sevdiyimi hiss etmirdim, bəlkə də özümə etiraf etmirdim. Bir dəfə restoranda oturmuşduq. O dövrdə İnkyuya qızlar yazırdı. Mənim yanımda olanda mesaj gəldi və qeyri-ixtiyari telefona boylandım. Qızın yazdığını gördükdə özümdən asılı olmadan "get, qızlarla danış" dedim və masadan qalxdım. Onu qısqandığımı hiss edib mənə münasibət qurmağımızı təklif etdi. Yaxşı ki, o zaman ona şans vermişəm".

### "MƏN SAKİTƏM, O İSƏ ƏSƏBİ"

İnkyunun sözlərinə görə, onların münasibəti "biri od olanda, digəri su olar" prinsipinə əsaslanır: "Zeynəb çox dürüst qızdır, amma bir az əsəbidir. Məsələn, mən sakitəm, o isə mənə oxşamır. Onunla zarafat edib qəsdən hirsləndirməyi çox sevirəm".

Zeynəb də yoldaşı ilə razıdır. Onun fikrincə, münasibətlərini ayaqda saxlayan da məhz budur: "Mübahisələri əsasən mən yaradıram. Çox zaman qısqanclıq zəminində olur. İlk addımı isə həmişə İnkyu atır. Çalışırıq danışaraq həll edək. Böyük mübahisə olduqda İnkyu gözləyir ki, mən sakitləşim. Sonra oturub müzakirə edirik. Düşünürəm ki, münasibətdə özünü real kimliyinlə göstərməlisən. Bir də qısqanclıq və qadağalar münasibəti bitirir".



> **İnkyu:**
> *Sizin adətləriniz çox maraqlı idi. Xonçanı ilk dəfə görürdüm. Sayının çox olması da təəccübləndirmişdi. Qurban bayramında qoyunun bəzədilməsi isə gülməli gəlmişdi.*

### ONDAN ÖNCƏ VƏ SONRA

Zeynəb deyir ki, İnkyudan öncə tamamilə fərqli düşündüyü məsələlər indi ona qəribə gəlmir: "Mənim ən çox xoşuma gələn çoxlu hədiyyələr alması, sürprizlər etməsidir. Oyun salonlarında birlikdə keçirdiyimiz vaxtlar mənim üçün ən gözəlidir. Koreyada böyüklərin də əylənməsi üçün uşaq əyləncə salonları mövcuddur. İnkyu ilə gedəndə iki balaca uşaq kimi doyunca əylənirik. Mən oyun oynamağı çox sevirəm. İnkyunun yanında uşaqlığımı yaşayıram. Həmişə mənə deyir ki, sən uşaq kimi sevinəndə xoşbəxt oluram. Mənim evlənmək fikrim yox idi. Çünki karyera qurmağı düşünürdüm. Zənn edirdim ki, münasibət bu yolda mənə mane olar. Lakin İnkyu fikirlərimi dəyişdi. Çünki hər mövzuda mənə dəstək olurdu. Həmişə arxamda olduğunu hiss etdirirdi. Əvvəllər kimsə xarici oğlanla münasibət quranda o qədər də müsbət baxmırdım. İnkyu mənim bütün fikirlərimi dəyişdi. Onu yoldaşım olaraq görməyimin səbəblərindən biri də insanlarla münasibətidir. Uşaqla uşaq, böyüklə böyük kimi davranırdı. Fikrimdə dəqiqləşdirdikdən sonra İnkyuya dedim ki, münasibətimiz ciddiləşəcəksə, ailələrimizə bildirək. Atasına dedi, mən də öz ailəmə dedim və nişanlandıq".

### "DİL, MƏDƏNİYYƏT ÇOX FƏRQLİDİR, YOL UZAQDIR"

İnkyunun dediyinə görə, evlənmək istədiyini bildirdikdə, valideynləri bir az qərarsız qalıb. Lakin o, qərarından dönməyib: "Mənim üçün evlilik qərarı vermək çox çətin idi. Birinci çox tərəddüd edirdim. Sonra düşündüm ki, mən evlənməsəm, başqası onun yoldaşı olacaq, Zeynəbi əldən buraxa bilmərəm. Valideynlərim də bir az çəkinirdi. Çünki xaricə getdim və çox az müddətdə evlənmək qərarı verdim. Düşünürdülər ki, dil, mədəniyyət çox fərqlidir, görəsən, necə olacaq. Dedilər ki, bir az da fikirləş, tələsmə. Amma mən artıq qarşıma bu məqsədi qoymuşdum".

Zeynəbin də valideynləri eyni narahatlığı yaşayıb. Amma qudalar tanış olduqdan sonra bütün problemlər aradan qalxıb: "Biz evlilik qərarı verməmişdən ailəm İnkyunu tanıyırdı. Anamın doğum günündə rəfiqələrim sürpriz etmişdilər və İnkyu da onlarla birlikdə ilk dəfə evimizə gəlmişdi. İnkyunun sənədində problem yarandıqda atamla birlikdə Gürcüstana getmişdilər, orada münasibətləri möhkəmlənmişdi. Atam sonralar hər yerdə deyirdi ki, mən bu qədər mədəni oğlan görməmişəm. Onlara evlənmək istədiyimi bildirdikdə etiraz etmədilər. Sadəcə, Koreyanın çox uzaq olması və fərqliliklər valideynlərimi də qorxudurdu. İnkyunun atası ilə görüşdükdən sonra fikirləri tamamilə dəyişdi".

### KOREYALI KÜRƏKƏNİN ADƏTLƏRİMİZLƏ İMTAHANI

Toydan əvvəlki adətlər və qız toyu ölkəmizdə olub. İnkyu ona maraqlı gələn adətlərimizdən danışdı: "Nişanımızda bütün adətlərinizə əməl olunmuşdu. Sizin adətləriniz çox maraqlı idi. Xonçanı ilk dəfə görürdüm. Sayının çox olması da təəccübləndirmişdi. Qurban bayramında qoyunun bəzədilməsi isə gülməli gəlmişdi. Rəqsləriniz də həm mənə, həm də dostlarıma qəribə gəlirdi. Amma çox əylənmişdik. Toy Koreyada maksimum bir saat çəkir, yemək də olmur, başqa bir məkanda oturub yeyirlər. Bizim toy altı saat olmuşdu. Yeyib-içirdik, oynayırdıq. Fikrimcə, belə daha yaxşıdır".

Cütlüyümüz problemsiz şəkildə bir-birinə qovuşsa da, bu, çox uzun çəkməyib.

Zeynəb: "Qız toyumuz Azərbaycanda oldu. Oğlan toyu üçün Koreyaya getdikdə pandemiya başladı. Bu səbəbdən toy əvəzinə kiçik yığıncaq etdik. Çünki orada da restoranlarda toplaşmağa icazə vermirdilər. Sərhədlər də bağlandığı üçün ailəm gələ bilmədi. Koreya hökuməti bizi evli olaraq qəbul etmədi. Mən Azərbaycana qayıdıb evlilik vizası alıb, geri dönməli idim. Azərbaycana gəldim, amma geri qayıda bilmədim. Çünki sənədlərin göndərilməsində çox böyük problem yaşadıq. Zaman keçdikcə İnkyudan ötrü çox darıxırdım, getmək istəyirdim".

### "KOREYADA QIZLAR TOYA MAKİYAJSIZ, EV GEYİMİNDƏ GƏLİRLƏR"

Zeynəb Koreya toylarında qarşılaşdığı qəribəliklərdən də bəhs etdi: "Koreyada toyda ailələr sadəcə yemək yeyirlər. Onların toyları daha bahalıdır. Gəlindən başqa heç kim ağ libas geyinə bilməz. Koreyada qızlar toya makiyajsız, hətta ev geyimində gəlirlər. Bu, onların adətidir. Hansısa qız bəzənib gəlsə, düşünürlər ki, bəydən xoşu gəlir və onu cəlb etmək üçün belə bəzənib. Bu fikir mənə hələ də məntiqli gəlmir. İlk dəfə Koreyada toya gedəndə İnkyu dedi ki, bəzənmə. Mən isə onu dinləməyib azərbaycanlı qız kimi bəzənib düzəndim, ən gözəl geyimimi geyinib getdim. Toyda şoka düşmüşdüm. Çünki qızlar cins şalvar və sadə köynəkdə gəlmişdilər. İşıq kimi parladığım üçün hamı mənə qəribə baxırdı. Həmin gün çox utanmışdım".

### "HƏM KOREYA, HƏM DƏ AZƏRBAYCAN DİLİNDƏ DANIŞIRIQ"

İnkyu Azərbaycanda yaşadığı dövrdə dilimizi öyrənib, hətta səlis danışa bilir: "Azərbaycan dilini öyrənəndə Zeynəblə danışırdım. İlk vaxtlarda cümlələri yoldaşımı misal gətirərək qururdum. Onun etdiyi hərəkətlərlə öyrənirdim. "Tütək səsi" filmindəki "Şoşubala" ifadəsi gülməli gəlmişdi. "Möhtəşəm yüz il" serialında "sultanım" sözünü də bəyənirəm. Evimizdə həm Koreya, həm də Azərbaycan dilində danışırıq. Qızımız körpə olsa da, hər iki dilə reaksiya verir. Gələcəkdə də hər iki dildə danışmasını istəyirik".

## KOREYA VƏ AZƏRBAYCAN BAYRAMLARININ FƏRQİ

İnkyunun ən sevdiyi bayramımız Novruzdur: "Rəngli yumurtaları toqquşdurmaqdan xoşum gəlir. Şəkərburanı da bəyənirəm, adı yadımdan çıxır deyə ona "ağ çörək" deyirəm".

Zeynəbin sözlərinə görə, bizdə olduğu kimi Koreyada da bayramlarda xüsusi adətlər mövcuddur: "Koreyada bayramlar daha sakit keçir. Bizdəki kimi təmtəraqlı deyil. Bayramlarda onlarda da bütün ailə ən böyüyün başına toplaşır. Hörmət əlaməti olaraq onların qarşısında baş əyirlər. Ölən qohumları yad edirlər".

Koreya və Azərbaycan mətbəxi çox fərqli olsa da, İnkyu yeməklərimiz haqqında müsbət danışdı: "Ən sevdiyim yeməyiniz düşbərə və kababdır. Bir də qayınanamın kələm dolmasını çox



bəyənirəm. Evimizdə həm Koreya, həm Azərbaycan mətbəxindən təamlar bişir. Amma heyf ki, buradakı ərzaqlarla bişən yemək sizdəki qədər dadlı olmur".

Zeynəb: "İnkyunun ailəsi də kababımızı çox bəyənir. Onların yeməkləri əsasən duzsuz və yağsız olur. Ona görə də bizim yeməklərimizin əksəriyyəti onlara yağlı və duzlu gəlir. Bəzən ona görə yeyə bilmirlər. Məsələn, kotlet onlara görə deyil. Qatıq və ayran da həmçinin".

Koreya mətbəxi üçün çox zaman qəribə və bizim ağız dadımız üçün olmadığı deyilir. Lakin Zeynəbə görə elə deyil: "Koreyanın mətbəxi çox zəngindir. Minerallı yeməkləri çoxdur. Azərbaycanda mədəmdə problem olsa da, bir neçə ay Koreyada qalmağımla bu problem aradan qalxdı. Azərbaycanda müayinəyə getdikdə həkimim təəccüblənmişdi".



### KOREYANIN BİLİNMƏYƏN TƏRƏFLƏRİ

Zeynəb Koreya haqqında az bilinən məlumatlara da aydınlıq gətirdi: "Mən xarici ölkəyə getmək və orada yaşamaq istəyirdim. Bu səbəbdən də ölkələr axtarırdım. Cənubi Koreyanı kəşf etdim və oraya getmək qərarı aldım. Bəlkə də bu səbəbdən ilk vaxtlar Koreyaya gələndə heç bir çətinlik yaşamadım. Kinolardakı kimi olmadığını bilirdim. Çox nizamlı ölkədir. Böyüklərə hörmət mövcuddur. Özündən vəzifə və ya yaşca böyük olan şəxs sənə nəsə deyirsə, onu mütləq dinləməlisən. Koreyalılar çox zaman haqlarını da tələb etmirlər. Ən pis halda işdən çıxırlar. Amma ən bəyəndiyim odur ki, burada təcrübəsiz insanlara da iş verirlər. Gənclərə gözəl fürsətlər yaradırlar. Sadəcə, Koreya dilini bilib-bilmədiyini soruşurlar. Cənubi Koreya çox təhlükəsiz ölkədir. Burada hər yerdə kameralar quraşdırılıb. Hətta gecə də çölə çıxırlar. Bəzən iş saatları uzana bilir, tələbələr gecə dərsdən çıxıb evlərinə gedirlər. 7/24 fəaliyyət göstərən marketlər var. Qadınlara çox hörmət edirlər. Koreyada qadınlar daha hökmrandır. Koreyalı oğlanların əksəriyyəti sakitdir. Koreyalılara çox adam soyuqqanlı deyir. Amma mənim fikrimcə, bu, belə deyil. İlk başda quru qarşılasalar da, siz onlara necə yaxınlaşsanız, onlar da sizinlə o cür münasibət yaradır. Koreyalılar yalanı sevmirlər".

# “XOCALI. SON TOY...”



**Fotolar:** Tapdıq Abdullayev - Global Photostock

“Global Media Group”un və “Report”un ərsəyə gətirdiyi filmin ideyası 1992-ci ilin 18 yanvarında çəkilmiş fotodan yaranıb. Ekran işi Xocalıda yarımçıq qalan toyu, bundan sonra baş verən prosesləri özündə ehtiva edir.

Nizami Kino Mərkəzində “Xocalı. Son toy...” filminin təqdimat mərasimi keçirilib. “Global Media Group”un və “Report” İnformasiya Agentliyinin birlikdə ərsəyə gətirdiyi bədii-sənədli filmin süjet xətti 33 il öncə ermənilərin Xocalını atəşə tutması nəticəsində yarımçıq qalan sonuncu toy mərasiminə əsaslanır.

### “VAĞZALI”SI YARIMÇIQ QALAN TOYUN SƏDALARI

1992-ci ildə baş verən və bəşər tarixinin ən qanlı hadisələrindən birinə çevrilən Xocalı soyqırımı insanlıq faciəsi olmaqla yanaşı, həm də neçə-neçə insanın, ailənin sevincini əlindən almış, əbədi ağrıya çevrilmişdir.

“Xocalı. Son toy...” bədii-sənədli filmində də illər öncə “Vağzalı”sı yarımçıq qalan toyun sədaları yenidən eşidilir, azad-abad Xocalı yenidən toy-bayram əhval-ruhiyyəsinə bürünür.

Ekran işində xalqımızın keşməkeşli tarixinin ən ağrılı səhifəsi olan Xocalı yarasının məhz bu toyun fonunda yenidən sevincə, pozitiv gələcəyə köklənməsi əksini tapır.

Yarımçıq qalan toyun bəyi Vasif Qafarov və gəlini Dürdanə Məmmədova, eləcə də həmin toyda iştirak edən digər qonaqlar, qohumlar, həmçinin musiqi heyəti illər sonra yenidən doğma ata-baba yurdlarına gələrək toy mərasimini davam etdirir, Xocalı sakinlərinin yenidən doğma yurdlarına dönüşünü əyani formada nümayiş etdirirlər.

### REAL KADRLAR XOCALIDA LENTƏ ALINIB

Filmin ideyası 1992-ci ilin 18 yanvarında sözügedən toyda çəkilən fotodan ilhamlanaraq yaranıb. Ekran işi Xocalıda yarımçıq qalan toyu, bundan sonra baş verən prosesləri və günümüzü özündə ehtiva edir. Sözügedən toyda çəkilən ağ-qara foto yenidən zəfər bayrağı sancılmış azad Xocalıda həmin fotonun rənglənmiş variantı ilə canlandırılır ki, bu da Xocalının yenidən dirçəlməsini, yeni nəfəs tapmasını tərənnüm edir. Filmin real kadrları Xocalıda, bədii hissəsi isə Ağsuda lentə alınıb.

### “Ümid edirəm ki, bu dəstəyi doğrulda bildik”

“Report”un direktoru Fuad Hüseynəliyev bildirib ki, başda Ali Baş Komandan İlham Əliyev olmaqla, Vətən müharibəsi şəhidlərinə, qazilərinə bu günlər üçün minnətdarıq. Direktor filmin ərsəyə gəlməsində bir çox qurumlara və şəxslərə minnətdar olduqlarını ifadə edib. “Şübhəsiz, birinci növbədə, filmin “Global Media Qrup”un dəstəyi ilə ərsəyə gəldiyini deməliyik”.

F.Hüseynəliyev bildirib ki, çəkiliş prosesi o qədər də asan olmayıb.

### “TƏSADÜF NƏTİCƏSİNDƏ ONLARI TAPDIM”

“Xocalı. Son toy...” filminin ideya və ssenari müəllifi Niyam Şirinov və quruluşçu rejissoru Yusif Ələkbərzadə çəkiliş prosesindən danışıblar.

Ssenarist Niyam Şirinov da filmin ideyasının bir toy fotosundan yarandığını bildirib.



Fuad Hüseynəliyev

“Fikirlər var idi ki, həmin şəkildəki bəy və gəlin artıq həyatda yoxdur. Amma sırf təsadüf nəticəsində mən onları tapdım. 2020-ci ilin 26 fevralında Dürdanə xanımla görüşdük və bununla da, torpaqlarımızın işğaldan azad olunmasından sonra məhz bu ideyanı gerçəkləşdirəcəyimizə söz verdik”, - o deyib.

Quruluşçu rejissor Yusif Ələkbərzadə isə film prosesinin iki mərhələdən ibarət olduğunu deyib:

“Xocalının mərkəzində çəkəcəyimiz hissə bir az bizi, düzü, qorxudurdu. Çünki 40-a yaxın Xocalı sakini ilə yenidən Xocalıya qayıtmaq sözlə ifadə olunacaq hisslər deyil”.

Qeyd edək ki, filmin layihə rəhbəri “Global Media Group” İdarə Heyətinin sədri Elnur Nazim oğlu Abdullayev, ideya və ssenari müəllifi Niyam Şirinov, quruluşçu rejissoru Yusif Ələkbərzadə, prodüseri isə Fuad Hüseynəliyevdir.

# “NAR” REGİON QADINLARININ ŞƏXSİ İNKİŞAFINA DƏSTƏK OLUR

Beynəlxalq Qadınlar Günü ərəfəsində start götürən “Her Art in Action” festivalına dəstək olan “Nar” yaradıcılığı və ifadə azadlığını ön plana çəkən bu layihənin əsas tərəfdaşlarından biridir.

9 mart - 6 aprel tarixlərini əhatə edən festivalın builki mövzusu “Xəyal etmək azadlığı” qadınların fərdi və kollektiv şəkildə xəyallarını necə təsəvvür etdiyini, vizuallaşdırdığını və ifadə etdiyini araşdırır. Azərbaycan Rəssamlar İttifaqı və VarYox platformasının təşkilatçılığı ilə baş tutan festival sənətsevərləri bir araya gətirir, yaradıcı ifadəni təşviq edir. Festivalın təşkilinə verdiyi dəstəkdən əlavə, “Nar” sosial inklüzivlik strategiyası çərçivəsində 11 nömrəli internat məktəbinin şagirdlərinin sərgiyə qatılmasını təmin edir. Bu təşəbbüs gənc nəslin incəsənətlə tanış olmasına, yaradıcılıq potensialını inkişaf etdirməsinə və ifadə imkanlarını genişləndirməsinə şərait yaradır.




Şagirdlər sərgi çərçivəsində müxtəlif sənət əsərləri ilə tanış olmaq və interaktiv seminarlarda, tədbirlərdə iştirak etmək imkanı əldə edəcəklər. Tədbirin açılış nitqində çıxış edən “Nar”ın İctimaiyyətlə əlaqələr və korporativ ünsiyyət departamentinin direktoru Hökümə Kərimova bildirib: “Nar” olaraq, milli mənəvi dəyərləri yaşadan sənətə dəstək verməkdən qürur duyuruq. “Her Art in Action” festivalı təkcə qadınların incəsənətdə rolunu gücləndirmir, həm də regionlardakı istedadlı sənətkarların səsini duyurmağa imkan yaradır. Biz həmçinin 11 nömrəli internat məktəbinin gənclərinin festivalda iştirakını dəstəkləyərək inklüziv mühiti təşviq edirik”.

Festivalın sərgisi Lesli Qrey və Ayna Moazzenin kuratorluğu ilə baş tutan və regionlarımızı təmsil edən yerli rəssamlarla yanaşı, beynəlxalq rəssam və kuratorların işlərini təqdim edəcək. Rəsm, video əsərlər, instalyasiyalar və tamaşaları əhatə edən ekspozisiya çərçivəsində seminarlar, portfolio icmalları və müzakirələr təşkil olunacaq.

Tədbir bütün sənətsevərlər üçün açıqdır. Festival haqqında daha ətraflı məlumatı qeyd edilən linkdən əldə etmək mümkündür: https://herartinaction.com

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq, sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 606
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# İŞ SAATLARI NƏ VAXT DƏYİŞDİRİLƏCƏK?



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

İş saatlarının dəyişdirilməsi barədə qərardan iki aya yaxın vaxt keçməsinə baxmayaraq, bununla bağlı addımlar atılmayıb. Ekspertlər bu məsələnin xeyli vaxt aparacağı qənaətindədirlər.

Bir müddət öncə Bakı şəhərinin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi üzrə 2025-2030-cu illər üçün dövlət proqramı təsdiqləndi. Proqramda yer alan əsas məsələlərdən biri iş qrafikinin dəyişdirilməsi idi. Qərarda qeyd edilib ki, dövlət orqanlarının (qurumlarının), təhsil və tibb müəssisələrinin, habelə digər hüquqi və fiziki şəxslərin iş rejiminin dəyişkən iş qrafikinə əsasən təşkili, distant iş rejiminin tətbiqi, həmçinin nəqliyyatda gediş haqlarının günün pik saatlarında baha, digər saatlarda ucuz olması kimi məsələlər diqqət yetirilməli tədbirlərdəndir.

Məsələ ilə əlaqədar mətbuatda yazılar yazıldı, geniş müzakirə olundu. Lakin sərəncamdan iki ay keçməsinə baxmayaraq, hələ də bununla bağlı addımlar atılmayıb.

Maraqlıdır, iş saatları nə vaxt dəyişdiriləcək? Bu istiqamətdə təşəbbüslər varmı?

### “DÖVLƏT QURUMLARI ÖZ İŞİNİ QURUR”

Millət vəkili Vüqar Bayramov deyir ki, dövlət proqramında nəzərdə tutulan fəaliyyətlər birmənalı şəkildə reallaşacaq: “Dövlət proqramının təsdiqindən uzun müddət keçməyib. Bu proqramın özəlliyi odur ki, burada hər bir fəaliyyət üzrə zaman müəyyənləşdirilib. Artıq dövlət qurumları proqramda nəzərdə tutulan fəaliyyətlərə uyğun olaraq öz işlərini qururlar. Birmənalı şəkildə dövlət proqramında nəzərdə tutulan fəaliyyətlər icra olunacaq”.

### “QISA MÜDDƏTDƏ ŞAHİDİ OLACAĞIQ?”

Millət vəkili deyir ki, proqram həm nəqliyyat sektorunun inkişafı baxımından mühümdür, həm də bütövlükdə Bakı şəhərində tıxacın və sıxlığın aradan qaldırılmasına təkan verəcək: “Proqram bu ildən icra olunmağa başlanıb, iki aya yaxın vaxt keçib. Bu, uzun müddət deyil. Biz növbəti dövrlərdə bu proqram çərçivəsində kifayət qədər əhəmiyyətli və Bakının nəqliyyat infrastrukturuna təsir göstərəcək qaydaları müşahidə edəcəyik. Biz bütövlükdə nəqliyyat infrastrukturunun beynəlxalq standartlara uyğun olaraq daha da təkmilləşdirilməsinin qısa müddətdə şahidi olacağıq”.



## PROQRAMIN MƏQSƏDİ

Məlumat üçün bildirək ki, proqrama əsasən, 2025-2026-cı illərdə dövlət qurumları, təhsil və tibb müəssisələri, eləcə də digər hüquqi və fiziki şəxslərin iş rejimi dəyişkən iş qrafiki əsasında təşkil ediləcək. Müvafiq siyahılar Nazirlər Kabineti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi və TƏBİB tərəfindən təsdiqlənəcək. Proqram Bakı şəhərinin Baş Planına (2020–2040) uyğun olaraq, Bakı şəhərinin və ətraf ərazilərin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsini, iqtisadi inkişafın sürətləndirilməsini və insanların həyat keyfiyyətinin artırılmasını hədəfləyir. Dövlət Proqramı əhaliyə keyfiyyətli nəqliyyat xidmətləri göstərilməsi, ərazinin perspektiv inkişafı nəzərə alınmaqla yol hərəkətinin bütün iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi, ümumi istifadədə olan nəqliyyat xidmətlərinin keyfiyyətinin, dayanıqlılığının və əlçatanlığının artırılması, həmçinin fərdi mobil nəqliyyat vasitələrinin, nəqliyyat və piyada infrastrukturundan istifadənin müasir tələblərə cavab verən səviyyədə təmin edilməsi və nəqliyyatda rəqəmsal texnologiyaların tətbiqi prinsipləri əsasında hazırlanıb. Məqsəd nəqliyyat sisteminin təkmilləşdirilməsi nəzərdə tutulan Bakı şəhərində və ətraf ərazilərdə dayanıqlı nəqliyyat sisteminin qurulması, sərnişin mobilliyinin keyfiyyətinin artırılması və yol-nəqliyyat hadisələrinin, habelə ekologiyaya dəyən ziyanın həcminin azaldılması üçün zəruri tədbirlər görülməsidir.

## “BU, BİR QƏRARLA QISA MÜDDƏTDƏ HƏLL OLUNACAQ MƏSƏLƏ DEYİL”


Sahib Məmmədov
Vüqar Bayramov

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov deyir ki, iş qrafikinin dəyişməsi kompleks yanaşma tələb edir və bunun üçün vaxt lazımdır: “Bu, bir qərarla qısa müddətdə həll olunacaq məsələ deyil. İş qrafikinin dəyişdirilməsi üçün kompleks tədbirlər həyata keçirilməlidir. Bundan əlavə, bu dəyişiklik işəgötürənlərin rəyi əsasında həyata keçirilə bilər. Kollektivi çox olan iş yerlərində qrafikin dəyişdirilməsi şəhərdə tıxacların azalmasına səbəb ola bilər. 10-15 nəfərin işlədiyi müəssisələrdə bunu tətbiq etmək mümkün olmayacaq”.

### “TIXAC YARADAN AMİLLƏR ARAŞDIRILMALIDIR”

Hüquq müdafiəçisi deyir ki, əvvəlcə əsas tıxac yaradan amillər araşdırılmalıdır: “Əsas tıxac yaradan müəssisələr məktəblər, universitetlərdir. Yay aylarında da insanlar işə gedir, amma nəqliyyatda problemlər qış aylarında olduğu kimi deyil. Səbəb təhsil müəssisələrinin tətildə olmasıdır. Qərar qəbul olunur, icraçılar hərtərəfli araşdırma aparıb, monitorinqlər keçirdikdən sonra addım atırlar. Bu məsələnin dərhal həll olunması mümkün deyil. Ola bilər ki, bir müddət sonra bu məsələyə qayıdılacaq”.

# İSTİXANA SAHİBLƏRİ TƏŞVİŞDƏ

**Azərbaycanda istixanaların sayı azalır. Buna səbəb artan xərclər və xarici bazarda rəqabətin yüksəlməsidir. Yerli sahibkarlar ənənəvi Rusiya bazarında Türkmənistan təhlükəsi ilə üzləşiblər.**



SEVİNC ABBASOVA

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ildə Azərbaycanda ümumi sahəsi 1,6 min hektar olan 3037 vahid istixana fəaliyyət göstərib. Həmin istixanalarda 224,9 min ton pomidor, 11,6 min ton xiyar, 1,6 min ton göbələk, 237,6 ton çiyələk, 151,3 ton kartof, 55,0 ton limon, 35,5 ton kələm, 22,3 ton baş soğan, 15,3 ton badımcan, 14,1 ton bibər və sair meyvə və tərəvəz istehsal olunub.

Xatırladaq ki, ötən il ölkədə istixanaların sayı 191 ədəd azalıb. 2023-cü ildə ölkədə 3228 vahid istixana fəaliyyət göstərib.

Maraqlıdır, bu gün Azərbaycanda istixanalar nə dərəcədə rentabellidir? İstixana işlədənlərin əsas problemləri nədir?

### RUSİYA BAZARINI İTİRƏ BİLƏRİK

Sabiq millət vəkili Rüfət Quliyev istixana işlədənlərin ən böyük probleminin qazla bağlı olduğu qənaətindədir. Onun sözlərinə görə, bu məsələdə sahibkarlara heç bir güzəşt nəzərdə tutulmayıb: “Əslində istixana işlədənlərə tariflərdə müəyyən güzəşt olmalıdır. Çünki onlar yeni iş yerləri yaradır, məhsul istehsal edir, ölkəyə valyuta gətirir, vergi ödəyirlər. Hazırda bizim üçün əsas bazar Rusiyadır. Amma istixana sahibləri bu bazarda fəaliyyətlərini genişləndirə bilmirlər. Məsələn, bu gün Rusiyaya Türkmənistandan gələn məhsullar daha rəqabətlidir. Çünki bu ölkədə qazın qiyməti çox ucuzdur. Bu baxımdan, məhsulu aşağı qiymətə təklif etmək onlar üçün problem yaratmır. Bizdə də kənd təsərrüfatı sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə xüsusi rejim tətbiq olunmalıdır. Başqa heç bir problem yoxdur. Bu addım atılsa, ölkədə istixanaların sayı sürətlə artacaq”.



Rüfət Quliyev

## YÜKSƏK XƏRC RENTABELLİLİYİ AŞAĞI SALIB



Azərbaycan Meyvə və Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri, iş adamı Bəşir Quliyev bildirir ki, hazırda istixanaların rentabellilik səviyyəsi aşağıdır. Səbəb isə yüksək xərclərdir: “Əsas ixrac bazarımız Rusiyadır. Həmin bazarda həm daxili istehsalçı ilə, həm də digər xarici istehsalçılarla rəqabət artıb. Məsələn, onların sırasında Türkmənistanı qeyd edə bilərəm. Hazırda Azərbaycan pomidoru ilə Türkmənistan pomidoru ciddi rəqabətdədir”.

Assosiasiya sədri hesab edir ki, digər bazarlara çıxış imkanını genişləndirmək üçün həmin bazarlarda tələb yaratmaq lazımdır: “İndi alıcıya bir deyil, on ölkə və yaxud istehsalçı məhsul təklif edir. Ona görə alıcıya seçim etmək rahatdır. Bizim Avropa və digər bazarlara çıxmağımız üçün ilkin mərhələdə qısamüddətli logistika dəstəyi lazımdır. Məsələn, hazırda Polşa bizim məhsulları alır. Almaniyanın bir hissəsi də məhsullarımızı ala bilər. Amma oraya gedib çıxmaq üçün bizə güclü tələb gəlmir. Çünki təklifimiz orada seçilmir. Məsələn, bizim daşıma xərclərimizlə bağlı hansısa bir qısamüddətli dəstək layihəsi işlənilərsə, o təkan verər ki, məhsullarımız həmin ölkələrə axsın və nəticədə tələb yaransın. Tutaq ki, daşıma xərcində 50 qəpik dəstəyin olması o deməkdir ki, sən bazarda məhsulu 50 qəpik ucuz təklif edirsən. Artıq bu, oradakı alıcılara cəlbedici gəlir. Onlar məhsulu almağa başlayır, alandan sonra öyrəşirlər və tələb yaranır. Bazarı genişləndirməyin yeganə yolu budur”.



Bəşir Quliyev

## “HÖKUMƏTƏ TƏKLİFLƏR GÖNDƏRMİŞİK”

İş adamı onu da qeyd edir ki, Rusiya bazarı Azərbaycan istehsalçıları üçün aktuallığını həmişə saxlayacaq: “Biz bu bazarı əldən buraxıb hansısa bazarlar axtarmamalıyıq. Mövcud bazarı qoruyub paralel olaraq yeni bazarlar axtarmalıyıq. Yaranan hər bir problemə qarşı ünvanlı hərəkət planı tərtib olunmalıdır. Bizim rəqabətə davamlılığımızı artırmaq üçün qısamüddətli dəstək verilməlidir. Tutaq ki, ixrac olunan məhsullara maya dəyərini formalaşdıran ƏDV hissəsi qaytarıla və yaxud ixrac olunan məhsula subsidiya verilə bilər. İndi bazarda Türkmənistan məhsulları ilə bağlı problemi yaranıb. Onu araşdırmaq lazımdır ki, onların maya dəyəri niyə bizdən aşağıdır. Bizdə olan məlumata görə, onlarda qaz istixanalara demək olar ki, pulsuz verilir. İşçi qüvvəsi ucuzdur, vergilərdən də azaddırlar. Onlarda istixanaların sayının artması Azərbaycanın bazar payını azaldır. İndi bu vəziyyətdən bütün yerli istehsalçılar narahatdır. Biz mövcud vəziyyətlə bağlı hökumətə təkliflər göndərmişik. Hazırda təkliflərimiz araşdırma mərhələsindədir”.

### "BİR HEKTARA 1.5 MİLYON MANAT VƏSAİT LAZIMDIR"

Aqrar məsələlər üzrə ekspert Mircavid Həsənov hesab edir ki, Azərbaycanda istixanaların sayının artırılması üçün kifayət qədər potensial mövcuddur: “İstixana elə bir kənd təsərrüfatı sahəsidir ki, burada torpaq faktoru rol oynamır. Sadəcə, ərazi lazımdır. Bu gün dünyada müasir istixanalar geniş yayılıb. Onlardan ən geniş yayılmışı hidroponik becərmə sistemləridir. Hidroponik becərilmə üsulunda stellaj tipli əkin aparılaraq istixana ərazisindən daha səmərəli istifadə olunur. Yəni, bu sistemdə münbit torpağa ehtiyac yoxdur, sadəcə sistem günəşin bol olduğu ərazidə qurulmalıdır. Eyni zamanda, ərazini mavi yanacaqla təmin etmək imkanı olmalıdır. Bizdə həm kifayət qədər yanacaq, həm də boş torpaq sahələri mövcuddur. Əkinə yararsız torpaqlarda bu təsərrüfatları qurmaq mümkündür. Sadəcə, bu istiqamətdə təşviqedici proqramlar olmalıdır ki, fermerlərin marağı artsın. Çünki bu komplekslərin qurulması heç də ucuz başa gəlmir.

Müasir istixana sistemini qurmaq üçün 1 hektara təxminən 1-1.5 milyon manat vəsait lazımdır”.

Ekspertin sözlərinə görə, hazırda ölkədə fəaliyyət göstərən istixanaların çoxu kustar üsulla hazırlanıb. Müasir istixana kompleksləri əsasən, Bakı, Sumqayıt, Yevlaxda yerləşir və ümumi istixanaların cəmi 20 faizini təşkil edir.



Mircavid Həsənov

YENİSİNİ TİKMƏK ADI İLƏ SÖKDÜLƏR, AMMA TİKİNTİ YARIMÇIQ QALDI

# TİKİNTİSİ DOQQUZ İLDİR LƏNGİYƏN MƏDƏNİYYƏT SARAYI

Bərdə rayonundakı Mədəniyyət Sarayı yenidən tikilmək üçün sökülsə də, tikinti işləri yarımçıq qalıb. Sarayın kollektivi kiçik bir məkana sığınıb, rayon sakinləri isə yarımçıq qalmış tikintiyə nə vaxt başlanacağını gözləyirlər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Sovet dövrü postsovet ölkələrinin hər birinə ölkə üzrə səpələnmiş mədəniyyət evləri və klubları şəbəkəsini miras qoyub. Bu gün mədəniyyət evləri ölkəmizin istənilən şəhərinin və ya kəndinin tanış atributudur. Bu tikililər bir növ xalq evlərini əvəz edərək, mədəni təcrübənin daha əhatəli və məzmunlu görünüşünü təqdim ediblər. Çox keçmədən mədəniyyət məkanının başqa bir formatı - mədəniyyət sarayları meydana çıxdı. Onların böyük miqyasda olan memarlıq layihələri yeni fəaliyyət formaları - mühazirələr, müzakirələr, idman, müxtəlif dərnəklər konsertlər, tamaşalar və s. ilə sakinlərin asudə vaxtlarını zənginləşdirməyə xidmət etdi.

Bu gün də regionlarda mədəniyyət evləri və sarayları fəaliyyətlərini ənənəvi qaydada davam etdirirlər. Onların bəziləri yerli tamaşaçı tələbatını ödədiyi üçün qlobal transformasiyaya ehtiyac duymadan fəaliyyət göstərirlər. Bəzilərini isə “çoxfunksiyalılığa” ehtiyac adı ilə sökub, əvəzində “yenisini tikirik” deyiblər. Bərdə rayonundakı Mədəniyyət Sarayı kimi...

### “QORDİ DÜYÜNÜ”NƏ DÜŞƏN TİKİNTİ

Bərdə rayonunda yerləşən Mədəniyyət Sarayı vaxtilə ölkədəki üç ən böyük mədəniyyət sarayından biri kimi məşhur olub. 1979-cu ildə tikilən saray 97 otağa, geniş idman salonuna malik olub. Birinci mərtəbədə 1200 nəfərlik, ikinci mərtəbədə isə 500 nəfərlik və böyük səhnəyə malik tamaşa salonu olub.

Yerli sakinlərin dediyinə görə, bu saray qədimliyinə, böyüklüyünə və arxitekturasına görə Qarabağ zonasında birinci olub və rayon sakinlərinin həyatında mühüm rol oynayıb. Sakinlərdən birinin dediyinə görə, vaxtilə Bərdə Mədəniyyət Sarayında musiqi məktəbi də fəaliyyət göstərib. Bina sökülərkən həmin məktəb də binadan perik düşüb, hansısa darısqal bir binaya sığışdırılıb.

Mədəniyyət Sarayının binası 2013-cü ildə çoxfunksiyalı sarayla əvəz olunması məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən sökülüb. Sonradan müəyyən betonbərkitmə işləri aparılıb və bir neçə mərtəbəsi tikilib. Binanın tikintisinə 1.5 milyon pul da ayrılıb. Amma doqquz ildir ki, tikinti dayanıb və o vaxtdan bəri heç bir iş görülmür. Necə deyərlər, binanın tikintisi bir növ “Qordi düyünü”nə düşüb.







Fotolar: Kaspi

## “BİZ DƏ SİZİN KİMİ GÖZLƏYİRİK...”

Vaxtilə mədəni tədbirlərin əsas ünvanı kimi tanınan sarayın yenidən tikilib istifadəyə verilməməsi Bərdə sakinlərinin ciddi narazılığına səbəb olub. “Sarayı təmir də etmək olardı. Amma yenisini tikmək adı ilə sökdülər, yeni binadan isə əsər-əlamət yoxdur. Tikintisi doqquz ildir ki dayanıb...” - deyə sakinlər gileylənirlər: “Bu sarayda vaxtilə paytaxtdan gələn müğənnilər, teatr kollektivləri çıxış edirdi. Yerli camaat, ətraf rayonların sakinləri də bu sarayın xidmətindən istifadə edirdi. Bu gün isə adamlar mədəni tədbirlərə həsrət qalıb. Rayona qastrola gələn teatr kollektivləri, müğənnilər proqramlarını təqdim etməyə geniş salon tapa bilmirlər. İndiki vaxtda insanların mədəni tədbirlərə çox ehtiyacı var”.

Sakinlər rayon mərkəzindəki “Nizami” adına kinoteatrın da söküldüyünü deyirlər. Yəni sakinlər bir növ kinoteatra getmək və digər mədəni tədbirlərdə iştirak etməkdən məhrum olublar.

Vaxtilə Mədəniyyət Sarayında dərnək rəhbəri işləyən Gülnarə xanım 2003-cü ildən burada çalışdığını deyir. Onun sözlərinə görə, hazırda Mədəniyyət Sarayı 3 nömrəli məktəbin yaxınlığında kiçik otaqlara yerləşdirilib: “Tədbirlər hazırlayırıq, amma otaqlar kiçik olduğundan burada tədbir keçirə bilmirik. Böyük tədbirləri parkda, Mədəniyyət Mərkəzində edirik. Hazırda Novruz tədbiri hazırlayırıq. Vaxtilə sarayda çoxlu dərnəklər fəaliyyət göstərirdi. Öz dərnəklərimizdə uşaq hazırlayırdıq. Çox gözəl tədbirlərimiz olurdu. Ancaq saray söküləndən sonra çətinliklər yarandı. Yeni sarayın tikintisini isə biz də sizin kimi gözləyirik...”

### TİKİNTİSİ NƏZƏRDƏ TUTULAN LAYİHƏLƏR SİYAHISINDADIR

Mədəniyyət Sarayının taleyi ilə bağlı Mədəniyyət Nazirliyinə ünvanladığımız suala nazirliyin Aparat rəhbərinin müavini-Sənəd və vətəndaşlarla iş şöbəsinin müdiri Elçin Nəcəfovun cavabı belə oldu: “Nazirlik tərəfindən 2025-2028-ci illər ərzində dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu hesabına tikintisi nəzərdə tutulan layihələrin siyahısına Bərdə şəhərində çoxfunksiyalı incəsənət məkanının tikintisi daxil edilmiş və aidiyyəti üzrə İqtisadiyyat Nazirliyinə təqdim olunmuşdur”.

## İCRA HAKİMİYYƏTİ: “BİZDƏN NİYƏ SORUŞURSUNUZ?”

Bərdə rayon İcra Hakimiyyətinə isə görünür, yerli sakinlərin asudə vaxtlarının əsas ünvanı və mədəni tədbirlərin keçirildiyi məkanın nə söküntüsü, nə də tikintisi maraqlıdır. Belə olmasaydı qurumun memarlıq şöbəsindən binanın tikintisi ilə bağlı sualımıza “bunu bizdən niyə soruşursunuz? Bərdə Regional Mədəniyyət İdarəsindən soruşun. Binanın bizə heç bir aidiyyəti yoxdur. Vaxtilə binanın tikintisinə pul da ayrılıb. Amma sonradan vəsait ayrılmadığı üçün tikinti yarıda qalıb...” cavabı verilməzdi.

Bərdə rayonu üzrə millət vəkili Fatma Yıldırım sakinlərin müraciətlərinə əsasən binanın taleyi ilə bağlı Mədəniyyət Nazirliyinə rəsmən müraciət edib: “Bina Mədəniyyət Nazirliyinin sifarişi əsasında tikilir. Mədəniyyət Sarayı ilə bağlı Mədəniyyət Nazirliyinə rəsmən müraciət olunub. Digər tərəfdən, rayonda sakinlərin mədəni istirahətlərinin təşkili üçün 300 yerlik Mədəniyyət Mərkəzi var. Hazırda tədbirlər o mərkəzdə keçirilir”.

Maraqlıdır, “Aranın baş şəhəri”nin əsas mədəniyyət sarayının taleyi necə olacaq? Hələlik rəsmilər bu sualın cavabını dəqiq verə bilmirlər.



# YENİ STRATEGİYA NƏLƏRİ DƏYİŞƏCƏK?

**Strategiyada nəzərdə tutulan hədəflər könüllü əməletməyə şəraitin yaradılmasına imkan verəcək. Tam elektronlaşma və vergi kargüzarlığında ən yeni texnologiyaların, rəqəmsallaşmaların tətbiqi vergi münasibətlərində əlçatanlığı yüksək səviyyədə təmin edəcək.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) 2025-2028-ci illər üzrə Strategiyası hazırlanıb. Xidmətin rəisi Orxan Nəzərli mətbuata bildirib ki, strategiya dürüstlük, peşəkarlıq, innovativlik, təşəbbüskarlıq və əməkdaşlıq kimi dəyərlərə söykənir. Dövlət Vergi Xidməti insan mərkəzli və innovativ xidmətlərlə könüllü əməletməni sadə və əlçatan edən etibarlı tərəfdaş olmağı hədəfləyir.

Strategiya əsasən hansı məqamları əhatə etməlidir? Növbəti illər üçün vergi sistemində nələr dəyişməlidir? Bu suallarla mütəxəssislərə müraciət etdik.

### VERGİ MÜNASİBƏTLƏRİNƏ KÖNÜLLÜ ƏMƏLETMƏ

Auditorlar Palatasının üzvü, auditor Mehdi Babayev "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, DVX tərəfindən əsas istiqamətlər kimi müəyyən edilən güclü insan kapitalının formalaşdırılması, vergi hesablama və ödəmələrinə könüllü əməletmənin təbliği, vergidən yayınmaya qarşı mübarizə və dayanıqlı inkişafı təmin etmək üçün hazırda bütün imkanlar səfərbər edilib: "Xüsusilə, vergi münasibətlərinə könüllü əməletmənin səviyyəsinin artırılması daha mühüm hesab edilməlidir. Vergi ödəyiciləri tərəfindən könüllü əməletmə dedikdə, vergilərin vaxtında hesablanması və ödənilməsi, vergi bəyannamələrinin vaxtında göndərilməsi və ümumiyyətlə könüllü olaraq vergilərin düzgün hesablanması başa düşülə bilər. Lakin ən vacib olanı vergilərin riyazi olaraq düzgün hesablanması deyil, hesablamaların söykəndiyi məlumatların reallığı necə əks etdirməsidir. Başqa cür desək, könüllü əməletmə - sahibkarın fəaliyyətində baş verən bütün təsərrüfat əməliyyatlarının özü tərəfindən könüllü olaraq rəsmi qeydiyyatını aparmaqla, gəlir və xərc dövriyyələrinə aid olan bütün əməliyyatları qanunla müəyyən olunan elektron sənəd formalarında könüllü şəkildə düzgün, həqiqətə tam uyğun rəsmiləşdirməklə həyata keçirməsidir. Məqsəd şəffaflığa ən yüksək səviyyədə çatmaqdır. Strategiyada nəzərdə tutulan hədəflər könüllü əməletməyə mühitin, şəraitin yaradılmasına imkan verəcək. Tam elektronlaşma və vergi kargüzarlığında ən yeni texnologiyaların, rəqəmsallaşmaların tətbiqi vergi münasibətlərində əlçatanlığı yüksək səviyyədə təmin edəcək".




### EMOSİONAL VƏZİYYƏTİ YARADAN İNCƏ MƏQAMLAR

Auditor bildirir ki, sahibkarlarla vergi orqanları arasındakı münasibətlərin normallaşdırılması prosesində emosional vəziyyəti yaradan incə məqamlar var: "Məsələn, vergi orqanı tərəfindən bu quruma təqdim edilən bütün hesabatların, məlumatların maksimum düzgün emal edilməsi, vergi ödəyicisinin sorğularının daha sürətli cavablandırılması, vergi orqanının üzərinə düşən müddət öhdəliklərinin qısaldılması, vergi hesablamalarında aşkar edilən uyğunsuzluqlarla bağlı sorğuların asanlaşdırılması və mükəmməlləşdirilməsi kimi məsələlər vergi ödəyicilərinin fəaliyyətinə və DVX-sahibkar münasibətlərinə adekvat olmalıdır. Hesab edirəm ki, güclü insan kapitalının formalaşdırılması istiqaməti olan strategiya çərçivəsində bacarıqlı, bilikli, dinamik, müasir çağırışlara uyğunlaşa bilən və iqtisadiyyatın spesifik sektorları üçün ixtisaslaşmış vergi əməkdaşlarının əməyi ilə vurğuladığım məqamların həll olunması mümkündür".

Mütəxəssisin sözlərinə görə, vergilərlə bağlı iş yükü nə qədər az olsa, həmçinin sadələşdirilsə, belə vəziyyət vergi ödəyicilərinin vergi münasibətlərindəki fəallığını artırar: "Xüsusilə KOB-lar üçün daha əlverişli vergi rejimi yaradılması, aşağı gəlirli vətəndaşlar üçün isə vergi yükünün əhəmiyyətli dərəcədə azaldılması vacibdir".

## VERGİ MƏCƏLLƏSİ BAŞADÜŞÜLƏN OLMALIDIR




Vergi üzrə ekspert Mahmud Abasquliyev deyir ki, Vergi Məcəlləsinin daha da asan, başadüşülən olması, investorların cəlbi və vahid elektron portalın daha da təkmilləşdirilməsi vacibdir: "2025-2028-ci illəri əhatə edən vergi strategiyasının əsas prinsipi güclü insan kapitalının formalaşdırılması, könüllü əməletmənin təbliği, vergidən yayınma ilə inamlı mübarizə, davamlı və dayanıqlı inkişafın hədəflənməsindən ibarətdir. Bunun üçün Vergi Məcəlləsinin daha da asan, başadüşülən olması, investorların cəlbi və vahid elektron portalın daha da təkmilləşdirilməsi vacibdir. Artıq vergi ödəyiciləri üçün bütün əməliyyatların vahid platforma üzərindən aparılması təmin edilir və bu platformanın təkmilləşdirilməsi istiqamətində işlər gedir. Bu gediş gələcəkdə bizə hətta yoxlamaların elektron audit üzərindən uzaqdan idarə edilməsinə kömək edəcək. Vergi inzibatçılığının keyfiyyətinin artması şəraitində qarşıda duran fiskal öhdəliklər üzrə proqnozların icra edilməsi, vergi ödəyicilərinə xidmətlərin çeşidinin və keyfiyyətinin artırılması, risk əsaslı nəzarət sisteminin genişləndirilməsi, ortamüddətli perspektiv üçün vergi siyasəti üzrə hədəflərin həyata keçirilməsi əsas istiqamətlərdir".

### STRATEGİYANIN ƏSAS HƏDƏFİ...

M.Abasquliyev bildirir ki, əsas hədəf ölkəmizdə sahibkarlığın inkişafı və tərəqqisinə xidmət etməkdir ki, strategiya üzrə bu işlər aparılır: "Vergi xidmətinin insan resursları müvafiq rəqəmsal alətlərə malik olmalıdır ki, vergi ödəyicilərinin fəaliyyətini nəzarətdə saxlamaq, vergidənyayınma hallarının qarşısını almaq mümkün olsun. Bu baxımdan vergi xidmətinin rəqəmsallaşma səviyyəsi və dərinliyi artırılacaq. Əsas hədəf ölkəmizdə sahibkarlığın inkişafı və tərəqqisinə xidmət etməkdir".

# "CƏRİMƏLƏR ŞƏHƏRİ"NDƏN REPORTAJ

Sinqapur turistləri elə hava limanında heyrətləndirir. Qüsursuz təmizliyi ilə seçilən Çanqi hava limanı şəhərin görməli attraksionlarından biridir. "Asiya İsveçrəsi" materikin yoxsulluğundan, xaosundan və cinayətindən uzaq bir adadır.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az







Sinqapurun cəmi yarım əsr yaşı var, lakin onun sakinləri öz tarixləri ilə inanılmaz dərəcədə fəxr edirlər.

Ada ölkəsi dörd milyon əhalisi ilə sıx məskunlaşan bir şəhər-dövlətdir. "Asiya İsveçrəsi" çoxları üçün materikin çox hissəsinin yoxsulluğundan, xaosundan və cinayətindən uzaq bir adadır.

### SÜNİ İNTELLEKTLƏ İDARƏ OLUNAN XİDMƏT

Sinqapur təyyarədən enən turistləri elə hava limanında heyrətləndirir. Çünki qüsursuz təmizliyi ilə seçilən Çanqi hava limanı şəhərin görməli attraksionlarından biridir. Terminallar arasında "skytrain"lər sərnişinləri daşıyır, mükəmməl texnologiya ilə idarə olunan xidmət təqdim olunur. Tranzit sərnişinlərə dincəlmələri üçün komfort zonalarda şərait yaradılır. Yaşıl park, şəlalə, quşların nəğməsi insanlara böyük və füsunkar bir təbiət parkında olduğunu hiss etdirir. Hava limanından şəhər mərkəzinə mükəmməl və müasir nəqliyyat sistemi qurulub. Sinqapuru gəzmək asandır: nəqliyyat sistemi dünyanın ən yaxşılarındandır. Əsas növlər MRT (Kütləvi Sürətli Tranzit) və LRT (Yüngül Rail Tranziti) metrosudur. Ucuz və etibarlıdır, şəbəkələri demək olar ki, bütün turistik yerləri əhatə edir. Ödəniş yalnız kredit kartı və smart kartla həyata keçirilir. Avtobusa minərkən kartı sayğaca toxundurmaq lazımdır və bu zaman maksimum gediş haqqı tutulacaq. Avtobusdan düşdükdə kartı sayğaca yenidən toxunmaq lazımdır. Bu dəfə qiymət fərqi sizə qaytarılır. Yəni ödəniş məsafəyə görə qiymətləndirilir.






## Saqqızı ancaq apteklərdən almaq olar

Sinqapurun "gözəl şəhər"lə bərabər, "cərimələr şəhəri" mənasını verən ləqəbi də var. Səfər öncəsi ölkənin Miqrasiya Xidmətində qeydiyyatdan keçəndə elektron poçtuma gələn məktublarda ölkənin narkotiklərə qarşı sərt qanunlarının olduğu qeyd edildi. Burada bədəndə hər hansı narkotik maddənin olması, hətta ölkədən kənarda istehlak edilsə belə, cinayətdir. Qaydaları pozan turistləri 10 min dollardan başlayan cərimələr və həbslər gözləyir. Şəhərin hətta kiçik cinayətlərə qarşı da sərt qanunları mövcuddur. Məsələn, küçəni işıqforun qırmızı işığında keçmək, ictimai nəqliyyatda yeyib-içmək, tüpürmək, zibil atmaq qadağandır və yüksək məbləğdə cəriməsi var.

Ölkəyə saqqız idxalı qadağasının pozulması cərimə və ya hətta bir ilədək həbslə nəticələnə bilər. Küçədə saqqız çeynəmək və zibil atmağa görə cərimə tətbiq edilir, təkrar qayda pozuntusuna görə isə həbsə düşmək təhlükəsi var. Saqqızı ancaq apteklərdən almaq olar.

Qapalı ictimai yerlərdə, avtobuslarda, liftlərdə, kinoteatrlarda, teatrlarda, dövlət idarələrində, restoranlarda və mağazalarda siqaret çəkmək qadağandır. Küçədə isə yalnız xüsusi ayrılmış yerlərdə, yuxarı hissəsində külqabı olan yaşıl zibil qutularının yanında siqaret çəkmək olar. Gəzinti zamanı siqaret çəkmək qadağandır.

Amma son illər turistlər üçün bəzi məhdudiyyətlər yumşaldılıb. Məsələn, indi turistlər bütün gecəni barda rəqs etmək hüququ qazanıblar.

### BALIQÇI KƏNDİNDƏN "ASİYA PƏLƏNGİ"NƏ DOĞRU

Sinqapurun "iqtisadi möcüzəsi" islahatçı Li Kuan Yu sayəsində baş verib. Bir balıqçı kəndinin necə "Asiya pələngi"nə çevrildiyini anlamaq üçün Milli Muzeyə baş çəkmək lazımdır.

İlk mühacirlərin gəldiyi taxta gəmi Asiya Sivilizasiyaları Muzeyində saxlanılır. 1819-cu ildə İngiltərənin ticarət koloniyası kimi qurulan şəhər müstəqillik əldə etdikdən sonra dünyanın aparıcı ticarət limanı ilə ən çiçəklənən ölkələrdən birinə çevrilib. Bu gün Sinqapur son texnologiyalar mühiti, inkişaf etmiş biznes mərkəzidir. Müasir, zəngin şəhərin göydələnlərində və metrolarında Çin, Hindistan və Malay təsirlərinin müxtəlif qarışığı var. Rütubətli tropik iqlim, ləzzətli yeməklər, dəbli alış-veriş mərkəzləri və canlı gecə həyatı şəhəri bölgə üçün etibarlı dayanacaq və ya tranzit zonaya çevirib.

Sinqapurda hər şey son dərəcə müasir və eyni zamanda duyğusuz təsir bağışlayır. Eynən amerikalı yazıçı Uilyam Gibsonun "Ölüm hökmü ilə Disneyland" adlı məqaləsində qeyd etdiyi kimi: təmiz, cansıxıcı və həqiqi şəhər ruhu olmayan bir şəhər. Amma bu şəhərin mükəmməlliyinə heyrət edirsən...

Sinqapur küçə yeməkləri, dəbdəbəli hotelləri, Marina Körfəzinin qumlu çimərlikləri və körfəzdəki bağçalar kimi möhtəşəm attraksionları ilə tanınır. Burada görüləcək çox şey var.

Sinqapur Asiyanın mikrokosmosudur - burada çinlilər, malaylar, hindlilər, müsəlmanlar və dünyanın hər yerindən çox sayda miqrant yaşayır.

Sinqapurda 4 rəsmi dil var: ingilis, Çin (mandarin), malay və tamil. Ölkənin sakinləri ana dillərindən əlavə, demək olar ki, həmişə ingiliscə, bəzən isə əlavə olaraq başqa dildə danışırlar.






## MƏDƏNİ TƏSİRLƏRİN QARIŞIĞI

Ada-şəhərdə qonaq olan turistlərə qoşulub hər biri zəngin irsə və özünəməxsus orijinallığa malik Kiçik Hindistan, Chinatown və Kampong Glam kimi canlı rayonları gəzirəm. Bu ərazilər Sinqapura özünəməxsus görkəmini verən müxtəlif mədəni təsirlərin qarışığıdır. Buralarda dünya səviyyəli restoranlar var, amma küçə yeməkləri də dadlıdır. Böyük yemək meydançalarında məşhur əriştələrdən tutmuş Michelin ulduzlu yeməklərə qədər hər şeyi dadmaq olar. Ölkə Çin mətbəxi, dəniz məhsulları və suşi ilə məşhurdur. Hindistan və malay yeməkləri yalnız sağ əllə yeyilməlidir.

Sinqapurda yağış demək olar ki, hər gün güclü leysan şəklində yağır və nadir hallarda bir saatdan çox davam edir. Buna görə də həm günəşdən kölgə, həm də yağışdan sığınacaq üçün hər zaman çətir gəzdirmək lazım gəlir.



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
15 MART ŞƏNBƏ 2025
www.kaspi.az

Azərbaycanın gənc sərbəst güləşçiləri adlarından söz etdirməyə davam edirlər. Bu dəfə onlar Albaniyanın paytaxtı Tiranada keçirilən qitə birinciliyində rəqiblərinə göz açmağa imkan verməyiblər.



# ON İDMANÇI, DOQQUZ MEDAL

Azərbaycanın gənc sərbəst güləşçiləri Avropa çempionatında rəqibsizdirlər. Onlar bu dəfə Albaniyanın paytaxtı Tiranada keçirilən qitə birinciliyində rəqiblərinə göz açmağa imkan verməyiblər. Sərbəst güləş üzrə U-23 yığmamız bütün rəqiblərini üstələyərək, komanda hesabında Avropa çempionu olub. Özü də ardıcıl dördüncü dəfə. İlk dəfə 2022-ci ildə U-23 Avropa çempionatında titula sahib çıxan sərbəst güləşçilərimiz artıq dörd ildir ki, baş mükafatı özündə saxlayır.

**BİR QIZIL, DÖRD GÜMÜŞ VƏ DÖRD BÜRÜNC MEDAL**

Sərbəst güləş yığmamız Tiranaya 10 idmançı ilə yollanmışdı. Böyük məşqçi Cəbrayıl Həsənov, məşqçilər Taymuraz Kokoyev və Şərif Şərifovun rəhbərliyi altında Rəhman İmanov (57 kq), Ceyhun Allahverdiyev (61 kq), Murad Haqverdiyev (65 kq), Kənan Heybətov (70 kq), Ağanəzər Novruzov (74 kq), Fərid Cabbarov (79 kq), Arseniy Djioyev (86 kq), Sadiq Mustafazadə (92 kq), Abdulcəlil Şabanov (97 kq) və Yusif Dursunov (125 kq) Azərbaycanın idman şərəfini layiqincə təmsil etdilər.

Albaniya paytaxtında on idmançımızdan doqquzu fəxri kürsüyə çıxmağı bacardı. Ümumilikdə komandamız yarışı bir qızıl, dörd gümüş və dörd bürünc medalla başa vurdu. Millinin tərkibində Arseniy Djioyev qızıl, Ceyhun Allahverdiyev, Kənan Heybətov, Ağanəzər Novruzov və Fərid Cabbarov gümüş, Rəhman İmanov, Murad Haqverdiyev, Sadiq Mustafazadə və Yusif Dursunov isə bürünc medal qazandı.

**REKORD GÖSTƏRİCİLƏRLƏ PARLAQ NAİLİYYƏT**

Milli komandanın budəfəki uğuru rekord göstəricilərlə əlamətdar oldu. Güləş yığmamız həm topladığı xala, həm medalların, həm də finalların sayına görə öz rekordunu yenilədi.

Belə ki, yığmamız ilk dəfə bu yarışda on çəkidən doqquzunda medal qazandı. İlk dəfə beş sərbəst güləşçimiz qitə birinciliyinin finalında güləşdi. Komandamız yekun sıralamada 169 xal toplamaqla özünün yeni xal rekordunu müəyyənləşdirdi. Bu, həm də digər komandalar üzərində əzici üstünlüyün olması anlamın gəlir. Belə ki, millimiz ən yaxın izləyicisi olan Türkiyəni 52 xal qabaqladı. Ukrayna 104 xalla üçüncü yeri tutdu.

## Müşahidə edilən ardıcıl inkişaf

Gənc sərbəst güləşçilərimizin son illər keçdiyi yola nəzər saldıqda, karyera yüksəlişi göz önündədir. Belə ki, onların hər biri nəticələrini daha da yaxşılaşdırmağı bacarıb. Tiranada çempion olan Arseniy Djioyev karyerasında ilk qızıl medalı əldə edir. O, ötənilki analoji yarışda üçüncü yeri tutmuş, eyni zamanda Avropa çempionatında bürüncə sahib çıxmış və U-21 dünya çempionatında gümüş medal qazanmışdı. Gümüş medalçı Ceyhun Allahverdiyev 2023-cü ildəki U-20 Avropa çempionatından sonra indi də 23 yaşlılar arasında ən güclülərdən olduğunu sübut etdi. Kənan Heybətov 2024-cü ildə olduğu kimi yenə çempionluğun bir addımlığından döndü. O, 2022-ci ildə 20 yaşadək sərbəst güləşçilərin Avropa çempionatında ən güclü adını qazanmışdı. Ağanəzər Novruzov isə 17 yaşlılar və 20 yaşlılar arasında Avropa çempionatlarındakı bürünc medallardan sonra bu dəfə daha böyüklər arasında gümüş qazana bildi. Digər finalçı Fərid Cabbarov ilk dəfə böyük yarışda medal qazandı. Daha əvvəl U-20 və U-23 yığmalarında təmsil olunan idmançı fəxri kürsüyə yüksələ bilməmişdi.



Bürünc medalçılarımıza gəlincə, Rəhman İmanov 2023-cü ildəki yarışdakı uğursuzluqdan sonra özünü inkişaf etdirərək mükafat qazandı. 21 yaşlı Sadiq Mustafazadə və 19 yaşlı Yusif Dursunov isə qazandıqları bürünc medalla gələcəklərinin parlaq olacağının işarəsini verdilər.

## Qarşıda nə var?

Gənc güləşçilərimizi qarşıda daha bir mötəbər turnir gözləyir. Oktyabrda Serbiyanın Novi Sad şəhərində U-23 dünya çempionatı keçiriləcək. Son Avropa çempionu olan komandamızdan orada da gözləntilər böyükdür. Yığmanın baş məşqçisi Xetaq Qazyumov bildirib ki, gənclərimiz dünya çempionatında özlərini sübut etməlidirlər. Bu dəfə finala çıxıb gümüşlə kifayətlənən pəhləvanlarımızdan Serbiyada çempionluq gözlənilir. Qısası, gənc güləşçilərimiz Tiranadan sonra Novi Sadı fəth etməyə hazırlığa indidən başlamalıdırlar.

İdmançılarımızın potensialı isə daha artığına imkan verir. Pəhləvanlar ölkəsi Azərbaycan hər zaman güləş yarışlarında əsas favoritlərdəndir. Gənc idmançılar hazırkı nəticələri ilə kifayətlənməməli, bu günə qədərki ardıcıl yüksəlişi davam etdirərək daha böyük uğurlara fokuslanmalıdırlar. Tezliklə onlar böyüklər arasında Avropa və dünya çempionatlarına qatılacaqlar. Ən böyük gözlənti isə, təbii ki, Olimpiya Oyunları ilə bağlıdır. Güləşdə uzun illərdir davam edən Olimpiada qızılı həsrətinə məhz bu nəslin son qoyacağına inam böyükdür.




Rəhman İmanov